Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 27 (8050) BAZAR, 3 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyev gəncliyin ən böyük dostu və himayədarıdır

## Öz dövləti və lideri ətrafında sıx birləşən müasir gənclər Azərbaycan Prezidentinin ən böyük dəstəkçisi və onun siyasətinin davamçılarıdırlar

**“Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər... Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik”.**

Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında Prezident İlham Əliyevin söylədiyi bu fikirlər ölkədə aparılan gənclər siyasətinin mahiyyətini ifadə etməklə yanaşı, həm də bu strategiyanın real nəticəsini də əyani göstərir.

### Milli-mənəvi dəyərlərimizi qoruyub yaşadan gənclik

Dövlət başçısının səsləndirdiyi mülahizələr həqiqətən, gənclər adına çox qürurvericidir. Bu gün iftixar və qürur hissi ilə demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, gözəl adət-ənənələrimizi qoruyub yaşadır. Bu gün Azərbaycan gəncliyinin səsi dünyanın bir çox ölkələrindən gəlir. Azərbaycan gəncləri yeni ixtiraları ilə dünyaya səs salır, olimpiadalarda, beynəlxalq yarışlarda qızıl medallara sahib çıxaraq bayrağımızı ən yüksək zirvələrdə dalğalandırır, işğal altında olan torpaqlarımızın bir hissəsinin geri qaytarılmasında hünər göstərir. Azərbaycan gəncinin Lələtəpədə, Günnütdə dalğalandırdığı bayrağımız düşmənə göz dağı olur.

Dövlət başçısı da məhz bu amilə toxunaraq qeyd etdi ki, bu gün gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Şəhidlərimizin böyük əksəriyyəti gənclərimizdir. Gənclərimiz hərbi qələbələri şərtləndiriblər və Aprel döyüşləri şanlı tarixi qələbəmizdir.

### Ən çıxılmaz vəziyyətdə belə, gənclər ümidli olmalıdırlar

Prezident gənc yaşlarındakı fəaliyyətini bugünkü Azərbaycan gəncliyinə nümunə göstərərək onlara çağırış etdi. 23 yaşında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda müəllim kimi çalışdığını söyləyən dövlət başçısı 1990-cı ildən sonra həyatında yaşanan ağır dövrdən də söz açdı.

Xatırladaq ki, 20 Yanvar faciəsindən sonra Sovet İttifaqı rəhbərliyini ağır ittiham edən ulu öndər Heydər Əliyevin dünyaya çağırışından sonra dahi şəxsiyyətə qarşı amansız təqiblər başlanmışdı. Təbii ki, bu məkrli olaylar 23 yaşlı gənc İlham Əliyevin də həyatına təsirsiz ötüşməyə bilməzdi. Ancaq bu çirkin kampaniya İlham Əliyevi qarşısına qoyduğu məqsəddən çəkindirə bilmədi, ən çıxılmaz vəziyyətlərdə belə, yoluna davam etdi: “O vaxt Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. Mən çox yaxşı başa düşürdüm ki, əgər sovet rəhbərliyi atamı düşmən kimi tanıyırsa, mənim üçün bu cəmiyyətdə yer tapmaq çox çətin olacaq. Ancaq tale belə gətirdi ki, vəziyyət dəyişdi və bu gün Azərbaycan müstəqil dövlətdir. Bu, bizim ən böyük xoşbəxtliyimizdir. Bir daha demək istəyirəm ki, insanlar ən ağır vəziyyətdə də həmişə ümidli olmalıdırlar”.

Öz həyatını nümunə göstərən dövlət başçısı vurğuladı ki, hətta ən ağır dövrdə, ən çıxılmaz vəziyyətdə gənclər heç bir vaxt naümid olmamalıdırlar. Həmişə bilməlidirlər ki, onların taleyi öz əllərindədir.

### İndiyədək bilmədiyimiz həqiqətlər

Bu çıxışda tək gənclər yox, eyni zamanda, bütün xalqımız təəssüf ki, indiyədək bilmədiyimiz bəzi həqiqətlərdən də agah oldu. Və bu həqiqətlər Azərbaycan gəncliyi üçün ən mükəmməl nümunənin məhz İlham Əliyevin özünün, sözünün və fəaliyyətinin olduğunu təsdiq edir: “...Oxuduğum və dərs dediyim institutdan çıxarıldım.

*Ardı 6-cı səh.*

## Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti zati-aliləri cənab Maytripala Sirisenaya

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## Tərtər rayonunda Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Tərtər rayonunda Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.20.4-cü yarımbəndində göstərilmiş məbləğin 10 933 900 (on milyon doqquz yüz otuz üç min doqquz yüz) manatı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2019-cu il*

## IV Dövlət Proqramı islahatların davamı olacaq

**Yanvarın 29-da “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransın materiallarında diqqəti çəkən vacib məqam dövlət başçısının uğurları sadalaması, görülən işlərə tənqidi yanaşması, perspektivlərə aydınlıq gətirməsi və IV Dövlət Proqramının əsas konturlarını təyin etməsi ilə yadda qaldı.**

Prezident İlham Əliyev bir daha islahatlara sadiq olduğunu, Azərbaycanı dünyada islahatların lideri kimi irəli çıxarmaq, ölkə iqtisadiyyatını daha böyük uğurlara istiqamətləndirmək əzmində olduğunu nümayiş etdirdi, dövlət qurumlarını, biznes strukturlarını, sıravi vətəndaşları belə islahatların dərinləşməsinə çalışmağa, yeni təfəkkürə, düşüncəyə sahib olmağa dəvət etdi.

Ötən illərin uğurları nə qədər öyünməyə, təmtəraqlı raportlara imkan versə də, dövlət başçısının konfransdakı yekun nitqi analitik-tənqidi məzmunu və imkanların çözələnməsi, islahatların qarşıdakı mərhələsinin konturlarının səlis təyin edilməsi ilə seçildi. III Dövlət Proqramının uğurlu icrası iqtisadi intibahın məntiqi qanunauyğunluğu kimi dəyərləndirildi, eyni zamanda, həll olunmamış məsələlərə xüsusi diqqət yetirildi. Konfransın ruhu görülmüş işlərdən qürrələnmək əvəzinə, çatışmazlıqlara diqqət ayırmağa, bugünədək həll edilməyən problemlərin aradan qaldırılmasına köklənmişdi.

### Yeni elektrik stansiyaları tikiləcək

Konfransda enerji təhlükəsizliyi məsələlərinə də toxunuldu. Qeyd edildi ki, elektrik enerjisi ilə həm özümüzü tam təmin edə, həm də böyük həcmdə ixrac etsək belə, yeni elektrik stansiyalarının tikilməsinə ehtiyac var. Belə ki, sənaye potensialı, əhalinin artımı, kənd təsərrüfatının inkişafı, böyük sənaye klasterlərinin yaradılması gec-tez elektrik enerjisinin istehsalının artırılmasını zəruri edəcək. Bakıda 400 meqavat gücündə olan “Şimal 2” stansiyasının açılışı gözlənilir. Yeni 300, 350 və təxminən 400 meqavat gücündə stansiyanın tikintisi ilə bağlı işlər aparılmışdır. İlkin hesablamalar göstərir ki, 500 meqavat ətrafında əlavə güc əldə oluna bilər.

*Ardı 6-cı səh.*

## Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirilib



**2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirilib.**

AZƏRTAC xəbər verir ki, toplantıda Azərbaycan Prezidenti Administrasiyasının hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, müdafiə naziri, general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbərliyi, veteranlar, Azərbaycan Ordusunda xidmət edən gənclər, Aprel zəferinin qazanılmasında, həmçinin Naxçıvanın Günnüt və digər strateji yüksəkliklərinin azad edilməsində xüsusi xidmətləri olmuş hərbi qulluqçular, mətbuat və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Toplantıdan əvvəl Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin abidəsi, eləcə də Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman vətən övladlarının məzarları ziyarət olunub.

Tədbir iştirakçıları “Heydər Əliyev və Azərbaycan gəncliyi”, “Gənclərə qayğı Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir” və “Ordu gəncləri böyük qüvvədir” mövzularında fotosərgilərə baxıblar. Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani qonaqlara sərgilər barədə ətraflı məlumat verib.

A.Qurbani hər il ölkəmizdə geniş qeyd edilən Azərbaycan Gəncləri Gününün ümummilli lider Heydər Əliyevin sərəncamı ilə təsis olunduğunu diqqətə çatdırıb. Vurğulanıb ki, bu, ulu öndərin Azərbaycan gəncliyinə ali diqqət və qayğısının bariz nümunəsidir. Prezident İlham Əliyev gənclər siyasətində yeni mərhələnin başlanğıcını qoyub. Gənclərə qayğı bu gün ölkəmizdə milli dövlət siyasətinin ən mühüm istiqamətlərindən birinə çevrilib.

*Ardı 5-ci səh.*

## Məqsəd əhalinin sosial rifahını daha da yaxşılaşdırmaqdır

### Dövlət başçısı sosial və iqtisadi islahatların cari ildə də davam etdiriləcəyini bildirib

**Ötən illərin statistik göstəricilərinə nəzər yetirdikdə görürük ki, ölkənin iqtisadi inkişafı eyni zamanda əhalinin sosial rifahının yaxşılaşdırılmasına müsbət təsir edir. Bununla yanaşı, dövlət hər il sosial cəhətdən müdafiəyə ehtiyacı olan insanların həyat səviyyəsini yüksəltmək üçün əlavə tədbirlər görür. Belə ki, pensiyalar, müavinətlər və digər sosial ödənişlər müntəzəm şəkildə inflyasiyaya uyğun olaraq artırılır.**

Keçən il də iqtisadi sahədə bir sıra uğurlar qazanılıb. Ümumi daxili məhsulda iqtisadi artım 1,4, qeyri-neft sektorunda 1,8, sənaye istehsalında 1,5 faiz olub. Qeyri-neft sektorunda isə sənaye istehsalı 1,9 faiz artıb. Bunun fonunda əhalinin gəlirləri 9,2 faiz artıb, inflyasiya isə cəmi 2,3 faiz olub. Beləliklə, əhalinin gəlirləri inflyasiyadan yüksəkdir.

Əhlainin məşğulluğunun ildən-ilə artması eyni zamanda, əməkhaqqının və gəlirlərin artmasında da özünü göstərir. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ötən ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrünə nisbətən 2,9 faiz artaraq 540,1 manat təşkil edib. Əməkhaqqı neft sektorunda 3000,7, qeyri-neft sektorunda 484 manata çatıb. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 430,5, özəl müəssisələrdə isə 687,7 manat olub.

Əməkhaqqının artması gəlirlərin yüksəlməsinə təsir edən başlıca amildir. Bunun nəticəsidir ki, ötən ildə ölkə əhalisinin gəlirləri 2017-ci ilə nisbətən nominal ifadədə 9,2 faiz artaraq 53688,6 milyon manata çatıb. Əhalinin hər nəfərinə düşən gəlirlər 5467,7 manat və ya ayda orta hesabla 455,6 manat təşkil edib. Beləliklə, bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 49595,5 milyon manatlıq vəsait qalıb.

*Ardı 6-cı səh.*

# “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4; 2001, № 3, maddə 141; 2007, № 12, maddə 1212; 2008, № 11, maddə 960; 2014, № 4, maddə 331; 2015, № 4, maddə 352; 2016, № 3, maddə 419; 2018, № 4, maddə 651) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 1. Əsas anlayışlar**

**1.0.** Bu qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

**1.0.1. xidmətlər zərfi** - baza və əlavə hissələrdən ibarət olmaqla icbari tibbi sığortanın maliyyə mənbələri hesabına sığortaolunanlara müvafiq növdə, həcmdə və şərtlərlə göstərilən tibbi xidmətlərin toplusu;

**1.0.2. xidmətlər zərfinin baza hissəsi** - sığortaolunanlara xidmətlər zərfinə uyğun olaraq göstərilən ilkin səhiyyə xidməti, habelə təcili və təxirəsalınmaz tibbi yardım xidməti;

**1.0.3. xidmətlər zərfinin əlavə hissəsi** - sığortaolunanlara xidmətlər zərfinə uyğun olaraq göstərilən ixtisaslaşdırılmış tibbi yardım;

**1.0.4. sığorta haqqı** - risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində bu qanunla müəyyən olunmuş qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;

**1.0.5. sığortaçı** - “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda icbari sığorta qanunlarında və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs, icbari tibbi sığortaya münasibətdə isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

**1.0.6. sığortalı** - sığorta müqaviləsini bağlamaq vəzifəsi daşıyan, öz adından və ya sığortaolunan adından sığorta haqqı ödəyən və sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan şəxs və ya bu qanunla nəzərdə tutulmuş hallarda sığorta müqaviləsinin tərəfi;

**1.0.7. sığortaolunan** - sağlamlığı icbari və ya könüllü qaydada sığortalanmış Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi və ya müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

**1.0.8. sığorta ödənişi** - sığorta hadisəsi baş verdikdə icbari tibbi sığortaya münasibətdə xidmətlər zərfinə və tariflərə, könüllü tibbi sığortaya münasibətdə isə könüllü tibbi sığorta müqaviləsinə uyğun olaraq bu qanunla nəzərdə tutulmuş qaydada tibb təchizatçısına, tibbi ərazi bölməsinə və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxsə ödənilən maliyyə vəsaiti;

**1.0.9. sığorta limiti** - icbari tibbi sığorta çərçivəsində xidmətlər zərfində nəzərdə tutulduğu hallarda sığortaolunana sığorta ili müddəti ərzində göstərilən tibbi xidmətlərin say həddi;

**1.0.10. sığorta hadisəsi** - bu qanuna əsasən sığorta ödənişinin ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal (o cümlədən profilaktik müalicə üsullarının tətbiqi);

**1.0.11. sığorta ili** - icbari tibbi sığorta üzrə sığorta haqqının ödənildiyi ilin yanvar ayının 1-dən dekabr ayının 31-dək olan dövr;

**1.0.12. tibb təchizatçısı** - “Özəl tibb fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən özəl tibb fəaliyyəti və ya özəl tibbi praktika ilə məşğul olan hüquqi və ya fiziki şəxslər, habelə “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən əczaçılıq fəaliyyəti ilə məşğul olan hüquqi və ya fiziki şəxslər;

**1.0.13. tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilə** - icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərin göstərilməsi məqsədilə tibb təchizatçısı və ya tibbi ərazi bölməsi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında bağlanan müqavilə;

**1.0.14. tibbi ərazi bölməsi** - Azərbaycan Respublikasında dövlət səhiyyə sisteminə daxil olan və icbari tibbi sığortanın tətbiq olunduğu tibb müəssisəsi.”;

1.2. aşağıdakı məzmunda 1-1-ci maddə əlavə edilsin:

**“Maddə 1-1. Tibbi sığorta və onun formaları**

1-1.1. Tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə sığortaolunanın tibbi xidmət və dərman yardımı almasına təminat verir.

1-1.2. Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir.

1-1.3. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, sığorta hadisəsi zamanı sığortaolunanlara icbari tibbi sığortanın maliyyə mənbələri hesabına və xidmətlər zərfi çərçivəsində sığortaolunanların tibbi yardım almasını təmin edir.

1-1.4. Könüllü tibbi sığorta sığortaolunanların əlavə tibbi xidmət və dərman yardımı almasını təmin edir.”;

1.3. aşağıdakı məzmunda 2-1-ci maddə əlavə edilsin:

**“Maddə 2-1. Tibbi sığortanın subyektləri**

Tibbi sığortanın subyektləri sığortaolunanlar, sığortalılar, sığortaçılar, tibb təchizatçıları və tibbi ərazi bölmələridir.”;

1.4. II fəslin adı aşağıdakı redaksiyada verilsin:

**“II fəsil. Könüllü tibbi sığorta”;**

1.5. 3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 3. Könüllü tibbi sığortada sığortalılar**

3.1. Könüllü tibbi sığortada sığortalılar - sığorta olunan şəxslər və onların mənafeyini ifadə edən hüquqi şəxslərdir.

3.2. Könüllü tibbi sığortanın subyektləri arasındakı mübahisələrə inzibati qaydada və ya məhkəmə qaydasında baxılır.”;

1.6. 4-cü maddə üzrə:

1.6.1. birinci - beşinci hissələr 4.1-ci - 4.5-ci maddələr hesab edilsin;

1.6.2. adına, 4.1-ci, 4.3-cü və 4.4-cü maddələrdə “Tibbi” sözü “Könüllü tibbi” sözləri ilə əvəz edilsin;

1.6.3. 4.2-ci maddədə “Tibbi” sözü “Könüllü tibbi” sözləri ilə, “tibbi sığorta təşkilatları” sözləri “sığortaçılar” sözü ilə əvəz edilsin;

1.6.4. 4.5-ci maddədə “Tibbi” sözü “Könüllü tibbi” sözləri ilə əvəz edilsin və həmin maddədən “və icbari tibbi sığorta münasibətlərinin şamil edilmədiyi şəxslərin kateqoriyaları” sözləri çıxarılsın;

1.7. 5-ci maddə üzrə:

1.7.1. birinci - dördüncü hissələr müvafiq olaraq 5.1-ci - 5.4-cü maddələr hesab edilsin;

1.7.2. adında, 5.1-ci və 5.4-cü maddələrdə “Tibbi” sözü “Könüllü tibbi” sözləri ilə əvəz edilsin;

1.7.3. 5.2-ci maddədə “İcbari və könüllü” sözləri “Könüllü” sözü ilə əvəz edilsin;

1.7.4. 5.3-cü maddədə “Tibbi” sözü “Könüllü tibbi” sözləri ilə, “müəssisəsinə” sözü “təchizatçılarına” sözü ilə əvəz edilsin;

1.8. 6-cı maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 6. Könüllü tibbi sığorta üzrə sığortalının hüquq və vəzifələri**

6.1. Könüllü tibbi sığorta üzrə sığortalının hüquqları aşağıdakılardır:

6.1.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada könüllü tibbi sığorta müqaviləsi bağlamaq və ya onu ləğv etmək;

6.1.2. sığortaçını sərbəst seçmək;

6.1.3. könüllü tibbi sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə nəzarət etmək.

6.2. Könüllü tibbi sığorta üzrə sığortalının vəzifələri aşağıdakılardır:

6.2.1. sığorta haqlarını vaxtında ödəmək;

6.2.2. sığortaolunanların sağlamlıq vəziyyətinin göstəriciləri haqqında sığortaçıya məlumat vermək.

6.3. Könüllü tibbi sığorta müqaviləsində sığortalı üçün digər vəzifələr də nəzərdə tutula bilər.”.

1.9. 7-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 7. Könüllü tibbi sığorta üzrə sığortaolunanların hüquqları**

7.1. Könüllü tibbi sığorta üzrə sığortaolunanların hüquqları aşağıdakılardır:

7.1.1. könüllü tibbi sığorta şəhadətnaməsini aldıqları andan bu qanunla və könüllü tibbi sığorta müqaviləsində müəyyən olunmuş hüquqları həyata keçirmək;

7.1.2. könüllü tibbi sığorta müqaviləsi ilə müəyyən edilən tibbi yardım növlərinə və həcminə uyğun olaraq tibb təchizatçısından və ya tibbi ərazi bölməsindən hər hansı birini və həkimi seçmək;

7.1.3. könüllü tibbi sığorta müqaviləsinin şərtlərinə uyğun olan tibbi xidmətdən istifadə etmək;

7.1.4. könüllü tibbi sığorta müqaviləsinə əsasən müraciət etdiyi tibb təchizatçısından və ya tibbi ərazi bölməsindən sağlamlığının vəziyyəti, eləcə də tətbiq olunan müalicə metodları və onların nəticələri barədə məlumat almaq;

7.1.5. sığortalıya, sığortaçıya, tibb təchizatçısına və ya tibbi ərazi bölməsinə qarşı, könüllü tibbi sığorta müqaviləsinin şərtlərindən asılı olmayaraq, onların təqsiri üzündən vurulmuş zərərin ödənilməsi də daxil olmaqla, məhkəmədə iddia qaldırmaq;

7.1.6. könüllü tibbi sığorta müqaviləsinin şərtlərində müəyyən edildiyi halda, istifadə edilməyən sığorta haqqının bir hissəsini geri almaq.

7.2. Sığortaolunanların könüllü tibbi sığorta ilə bağlı mənafeyini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), sığortaçılar, həmkarlar ittifaqı təşkilatları və digər ictimai birliklər müdafiə edir.

7.3. Azərbaycan Respublikasından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarının könüllü tibbi sığortası Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən həyata keçirilir.”;

1.10. 8-ci maddə üzrə:

1.10.1. birinci və ikinci hissələr müvafiq olaraq 8.1-ci və 8.2-ci maddələr hesab edilsin;

1.10.2. adına və 8.2-ci maddəyə “tibbi” sözündən əvvəl “könüllü” sözü əlavə edilsin;

1.10.3. 8.1-ci maddədə “tibbi sığorta sistemində” sözləri “könüllü sığorta üzrə” sözləri ilə əvəz edilsin;

1.11. 9-cu, 11-ci, 12-ci və 14-cü maddələr ləğv edilsin;

1.12. 10-cu maddə üzrə:

1.12.1. adında “Tibbi” sözü “Könüllü tibbi” sözləri ilə əvəz edilsin;

1.12.2. birinci - ikinci hissələr ləğv edilsin;

1.13. III fəslin adı aşağıdakı redaksiyada verilsin:

**“III fəsil. Könüllü tibbi sığorta üzrə sığortaçıların fəaliyyəti”;**

1.14. 13-cü maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 13. Könüllü tibbi sığorta üzrə sığortaçının hüquq və vəzifələri**

13.1. Könüllü tibbi sığorta üzrə sığortaçının hüquqları aşağıdakılardır:

13.1.1. könüllü tibbi sığorta müqavilələri üzrə tibbi yardım və xidmətlər göstərilməsi üçün tibb təchizatçısını və ya tibbi ərazi bölməsini seçmək;

13.1.2. tibb təchizatçısı və ya tibbi ərazi bölməsi tərəfindən müqavilənin şərtlərinin pozulduğu hallarda tibbi xidmətlərə çəkilən xərcləri qismən ödəmək;

13.1.3. tibb təchizatçısının, tibbi ərazi bölməsinin və (və ya) tibb işçisinin təqsiri üzündən sığortaolunana vurulmuş zərərin ödənilməsi üçün məhkəməyə müraciət etmək;

13.1.4. zərərin sığortaolunan tərəfindən vurulduğu hallar istisna olmaqla, sığortaolunanın sağlamlığına vurulmuş zərər üçün cavabdeh olan fiziki və ya hüquqi şəxslərdən sığortaolunana tibbi yardım göstərilməsinə sərf olunmuş xərclərin ödənilməsini tələb etmək.

13.2. Könüllü tibbi sığorta üzrə sığortaçının vəzifələri aşağıdakılardır:

13.2.1. sığortaolunanlara könüllü tibbi sığorta müqaviləsinə uyğun tibbi yardım göstərilməsi üçün tibb təchizatçısı və ya tibbi ərazi bölməsi ilə müqavilələr bağlamaq;

13.2.2. könüllü tibbi sığorta müqaviləsinin qüvvəyə mindiyi andan sığortaolunana könüllü tibbi sığorta şəhadətnaməsini vermək;

13.2.3. tibb təchizatçısına və ya tibbi ərazi bölməsinə tibbi xidmətin haqqını müqavilədə nəzərdə tutulmuş qaydada və müddətdə ödəmək;

13.2.4. könüllü tibbi sığorta müqaviləsində nəzərdə tutulduğu halda, sığorta haqlarının bir hissəsini sığortaolunana qaytarmaq;

13.2.5. müqavilənin şərtlərinə uyğun olaraq tibbi yardımın həcminə, müddətinə və keyfiyyətinə nəzarət etmək;

13.2.6. sığortaolunanın mənafelərini müdafiə etmək.”;

1.15. IV fəslin adı aşağıdakı redaksiyada verilsin:

**“IV fəsil. Könüllü tibbi sığorta tarifləri”;**

1.16. 15-ci maddə üzrə:

1.16.1. adında “Tibbi” sözü “Könüllü tibbi” sözləri ilə əvəz edilsin;

1.16.2. birinci və ikinci hissələr ləğv edilsin;

1.16.3. üçüncü hissədə “sığorta təşkilatı” sözləri “sığortaçı” sözü ilə, “tibb müəssisəsi” sözləri “tibb təchizatçısı və ya tibbi ərazi bölməsi” sözləri ilə əvəz edilsin;

1.17. aşağıdakı məzmunda IV-I - IV-V fəsillər əlavə edilsin:

**“IV-I fəsil. İcbari tibbi sığorta**

**Maddə 15-1. İcbari tibbi sığortanın əsas prinsipləri**

15-1.0. İcbari tibbi sığortanın əsas prinsipləri aşağıdakılardır:

15-1.0.1. əhalinin tibbi xidmət almaq hüququna, habelə tibbi xidmətlərin əlçatanlığına və keyfiyyətinin artırılmasına dövlət tərəfindən təminat verilməsi;

15-1.0.2. sığortalıların icbari tibbi sığorta münasibətlərində həmrəylik prinsipinə əsaslanaraq iştirakının təmin edilməsi;

15-1.0.3. sığorta hadisəsi baş verdikdə, sığortaolunana xidmətlər zərfi çərçivəsində icbari tibbi sığortanın maliyyə mənbələri hesabına tibbi xidmətlərin göstərilməsi;

15-1.0.4. sığorta haqlarının sığorta ödənişlərinə mütənasibliyinin təmin edilməsi yolu ilə icbari tibbi sığortanın maliyyə sabitliyinin qorunması;

15-1.0.5. sığorta haqlarının sığortalılar tərəfindən müntəzəm ödənilməsinin məcburiliyi;

15-1.0.6. icbari tibbi sığortanın iştirakçılarının hüquqi bərabərliyi.

**Maddə 15-2. İcbari tibbi sığorta üzrə sığortalı və sığortaolunanlar**

15-2.1. Xidmətlər zərfinin baza hissəsinə münasibətdə Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi və ya müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər sığortaolunan hesab edilir.

15-2.2. Xidmətlər zərfinin baza hissəsinə münasibətdə sığortalı qismində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) çıxış edir.

15-2.3. Xidmətlər zərfinin əlavə hissəsinə münasibətdə sığortaolunanlar aşağıdakı kateqoriyalara bölünürlər:

15-2.3.1. Azərbaycan Respublikası Milli Məclisi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təyin olunan şəxslər, həmçinin seçkili ödənişli vəzifədə işləyən şəxslər;

15-2.3.2. neft-qaz sahəsində fəaliyyət göstərən və dövlət sektoruna aid edilən sığortalılarda Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq bağlanmış və hüquqi qüvvəyə minmiş əmək müqaviləsinə əsasən işləyən şəxslər;

15-2.3.3. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq bağlanmış və hüquqi qüvvəyə minmiş əmək müqaviləsi və ya Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki-hüquqi müqavilə əsasında işləmədiyi və sahibkarlıq fəaliyyəti ilə məşğul olmadığı hallarda:

15-2.3.3.1. Azərbaycan Respublikasının vətəndaşı olan 18 yaşınadək şəxslər;

15-2.3.3.2. peşə təhsili, orta ixtisas təhsili və ya ali təhsil müəssisələrində əyani təhsilalma forması üzrə təhsil alan 23 yaşınadək olan Azərbaycan Respublikasının vətəndaşları;

15-2.3.3.3. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən növündən asılı olmayaraq əmək pensiyası alan şəxslər;

15-2.3.3.4. “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən sosial müavinət almaq hüququna malik olan əmək qabiliyyəti olmayan şəxslər;

15-2.3.3.5. “Ünvanlı dövlət sosial yardım haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;

15-2.3.3.6. ərazi poliklinikalarında və qadın məsləhətxanalarında qeydiyyatdan keçmiş hamilə qadınlar, habelə doğuşdan sonra 42 gün müddətində qadınlar;

15-2.3.3.7. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən qismən ödənişli sosial məzuniyyətdə olan qadınlar.

15-2.3.4. sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;

15-2.3.5. mülki-hüquqi xarakterli müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər;

15-2.3.6. bu qanunun 15-2.3.1-ci - 15-2.3.5-ci maddələrində nəzərə tutulan şəxslər istisna olmaqla, digər şəxslər.

15-2.4. Azərbaycan Respublikasının Milli Məclisi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin olunan şəxslərə münasibətdə onların təyin olunduqları dövlət orqanı (qurumu), seçkili ödənişli vəzifə tutan şəxslərə münasibətdə isə onların seçildiyi dövlət və ya bələdiyyə orqanı (qurumu), neft-qaz sahəsində fəaliyyət göstərən və dövlət sektoruna aid edilən sığortalılarda Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq bağlanmış və hüquqi qüvvəyə minmiş əmək müqaviləsinə əsasən işləyən şəxslərə münasibətdə isə sığortalı qismində işəgötürənlər çıxış edir.

15-2.5. Bu qanunun 15-2.3.3-cü maddəsində nəzərdə tutulan şəxslərə münasibətdə sığortalı qismində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) çıxış edir.

15-2.6. Bu qanunun 15-2.3.4-cü - 15-2.3.6-cı maddələrində nəzərdə tutulan sığortaolunanlar sığortalı qismində özləri çıxış edirlər.

15-2.7. Bu qanunun şamil edilmədiyi şəxslərin əhatə dairəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15-2.8. Bu maddədə nəzərdə tutulan neft-qaz sahəsində fəaliyyətin və dövlət sektorunun meyarları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

**Maddə 15-3. Tibbi ərazi bölmələrinin və tibb təchizatçılarının icbari tibbi sığortada iştirakı**

15-3.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş tələblərə cavab verən tibb təchizatçıları və ya tibbi ərazi bölmələri icbari tibbi sığortada iştirak etmək hüququna malikdirlər.

15-3.2. Tibb təchizatçılarının və ya tibbi ərazi bölmələrinin bu qanunun 15-3.1-ci maddəsinə əsasən müəyyən edilən tələblərə uyğunluğunun qiymətləndirilməsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.

15-3.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bu qanunun 15-3.1-ci maddəsinə əsasən müəyyən edilən tələblərə cavab verən tibb təchizatçısı və ya tibbi ərazi bölməsi arasında tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilə bağlanılır.

**IV-II fəsil. İcbari tibbi sığortanın iştirakçılarının hüquq və vəzifələri**

**Maddə 15-4. İcbari tibbi sığorta üzrə sığortaolunanların hüquq və vəzifələri**

15-4.1. İcbari tibbi sığorta üzrə sığortaolunanların aşağıdakı hüquqları vardır:

15-4.1.1. sığorta hadisəsi baş verdikdə bu qanunla nəzərdə tutulmuş qaydada xidmətlər zərfinin baza və ya əlavə hissələrinə uyğun olaraq tibbi xidmətlərdən istifadə etmək;

15-4.1.2. bu qanunun 15-3.1-ci maddəsində nəzərdə tutulan tələblərə cavab verən tibb təchizatçısını və ya tibbi ərazi bölməsini seçmək;

15-4.1.3. göstərilən tibbi xidmətin növü, həcmi, müddəti, keyfiyyəti və şərtləri haqqında düzgün məlumatın verilməsini tibb təchizatçısından və ya tibbi ərazi bölməsindən tələb etmək;

15-4.1.4. “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən həkim sirri təşkil edən məlumatların gizli saxlanmasını tələb etmək;

15-4.1.5. tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin təqsiri üzündən dəymiş zərərin əvəzinin ödənilməsini tibb təchizatçısından və ya tibbi ərazi bölməsindən tələb etmək;

15-4.1.6. icbari tibbi sığorta sahəsində hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və ya məhkəməyə müraciət etmək;

15-4.1.7. xeyrinə ödənilmiş sığorta ödənişləri barədə məlumat almaq;

15-4.1.8. sığortaçıdan icbari tibbi sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;

15-4.1.9. onları icbari tibbi sığorta etməyi, habelə sığorta haqqının tam həcmdə və vaxtında ödənilməsini sığortalıdan tələb etmək.

15-4.2. İcbari tibbi sığorta üzrə sığortaolunanların vəzifələri aşağıdakılardır:

15-4.2.1. tələb edildiyi təqdirdə sağlamlıq vəziyyətinin göstəriciləri haqqında ona məlum olan məlumatları tibb təchizatçısına və ya tibbi ərazi bölməsinə vermək;

15-4.2.2. tibb təchizatçısına və ya tibbi ərazi bölməsinə müraciət etdikdə, şəxsiyyətini təsdiq edən sənədi ona təqdim etmək.

**Maddə 15-5. İcbari tibbi sığorta üzrə sığortalıların hüquq və vəzifələri**

15-5.1. İcbari tibbi sığorta üzrə sığortalıların aşağıdakı hüquqları vardır:

15-5.1.1. sığortalıların (sığortaolunanların) qeydiyyatı və uçota alınması haqqında məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) əldə etmək;

15-5.1.2. icbari tibbi sığorta sahəsində hüquqlarını və qanuni mənafelərini müdafiə etmək.

15-5.2. İcbari tibbi sığorta üzrə sığortalıların aşağıdakı vəzifələri vardır:

15-5.2.1. bu qanunun 15-13.2-ci maddəsində nəzərdə tutulmuş formada icbari tibbi sığorta müqaviləsini kağız daşıyıcıda və ya elektron formada bağlamaq;

15-5.2.2. sığorta haqlarını vaxtında və tam həcmdə ödəmək.

**Maddə 15-6. İcbari tibbi sığorta üzrə sığortalıların (sığortaolunanların) fərdi uçot qaydası**

15-6.1. Bu qanunun 15-6.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla icbari tibbi sığorta üzrə sığortalı və sığortaolunanların fərdi uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.

15-6.2. Bu qanunun 15-2.3.1-ci, 15-2.3.2-ci, 15-2.3.4-cü və 15-2.3.5-ci maddələrində nəzərdə tutulan sığortaolunanların və sığortalıların uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdim etdiyi uçot məlumatları əsasında aparılır.

15-6.3. Sığortalı və sığortaolunanların fərdi uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 15-7. İcbari tibbi sığorta üzrə tibb təchizatçısının və tibbi ərazi bölməsinin hüquq və vəzifələri**

15-7.1. Tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin aşağıdakı hüquqları vardır:

15-7.1.2. bu qanunun 15-3.1-ci maddəsinə əsasən müəyyən edilən tələblərə cavab verdikdə, icbari tibbi sığortanın həyata keçirilməsində iştirak etmək;

15-7.1.3. bu qanunun 15-19-cu maddəsinə uyğun olaraq bağlanmış müqavilə əsasında göstərilmiş tibbi xidmətə görə sığorta ödənişini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) tələb etmək;

15-7.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bu qanunla nəzərdə tutulmuş qaydada apardığı ekspertizanın nəticələrini mübahisələndirmək.

15-7.2. Tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin aşağıdakı vəzifələri vardır:

15-7.2.1. bu qanunun və tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilənin şərtlərinə uyğun olaraq sığortaolunanlara xidmətlər zərfinə daxil olan tibbi xidmətlər göstərmək;

15-7.2.2. icbari tibbi sığorta çərçivəsində və tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilənin şərtlərinə uyğun olaraq tibbi xidmətin növünə, həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə təminat vermək;

15-7.2.3. icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətin uçotunu aparmaq;

15-7.2.4. icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətin növünə, həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə nəzarətin həyata keçirilməsi məqsədilə sığortaolunanlar, onlara göstərilən tibbi xidmətlərin növü, müddəti, keyfiyyəti, şərtləri, o cümlədən “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq onlarla bağlı həkim sirri təşkil edən məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) vermək;

15-7.2.5. icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmət barədə hesabatları bu qanunla nəzərdə tutulmuş qaydada və müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etmək;

15-7.2.6. onun təqsiri üzündən sığortaolunanların sağlamlığına dəymiş zərərin əvəzini ödəmək;

15-7.2.7. tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilədə nəzərdə tutulmuş ixtisaslaşdırılmış tibbi yardım xidmətinin göstərilməsi mümkün olmadıqda, təcili və təxirəsalınmaz hallarda tibb təchizatçısı və ya tibbi ərazi bölməsi tərəfindən öz maliyyə vəsaiti hesabına sığortaolunanı bu xidməti göstərən digər tibb təchizatçısına və ya tibbi ərazi bölmələrinə göndərmək.

**Maddə 15-8. İcbari tibbi sığorta üzrə sığortaçının hüquq və vəzifələri**

15-8.1. İcbari tibbi sığorta sahəsində sığortaçının aşağıdakı hüquqları vardır:

15-8.1.1. icbari tibbi sığorta üzrə dövlət adından tibbi xidmətlərin mərkəzləşdirilmiş alıcısı funksiyasını həyata keçirmək;

15-8.1.2. tibbi xidmətlərdən istifadə edilməsində əhali üçün bərabər şərtlərin yaradılması, tibbi xidmətlərin keyfiyyət və səmərəliliyinin artırılması istiqamətində tədbirlər görmək;

15-8.1.3. xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin əlçatanlığına təminat vermək;

15-8.1.4. bu qanunla nəzərdə tutulmuş qaydada tibb təchizatçısı və ya tibbi ərazi bölməsi ilə tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilə bağlamaq;

15-8.1.5. bu qanunla və tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilədə nəzərdə tutulmuş qaydada vəzifələrin tibb təchizatçısı və ya tibbi ərazi bölməsi tərəfindən yerinə yetirilmədiyi və ya qismən yerinə yetirildiyi təqdirdə, icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlərin dəyərini ödəməmək, qismən ödəmək və ya tibb təchizatçısından və ya tibbi ərazi bölməsindən ödənilmiş vəsaitlərin geri qaytarılmasını tələb etmək.

15-8.2. İcbari tibbi sığorta sahəsində sığortaçının vəzifələri aşağıdakılardır:

15-8.2.1. icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması üçün tədbirlər görmək;

15-8.2.2. icbari tibbi sığortanın müntəzəmliyinə dövlət təminatı üçün tədbirlər görmək;

15-8.2.3. icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlərə görə tibb təchizatçısına və ya tibbi ərazi bölməsinə sığorta ödənişini ödəmək;

15-8.2.4. sığortaolunanların səhhətinə dair məlumatların, həmçinin həkim sirri təşkil edən məlumatların mühafizəsini və məxfiliyini təmin etmək;

15-8.2.5. sığortaolunanların icbari tibbi sığorta ilə bağlı hüquq və mənafelərini qorumaq;

15-8.2.6. icbari tibbi sığorta ehtiyatlarını yaratmaq və icbari tibbi sığorta vəsaitlərini idarə etmək;

15-8.2.7. sığortaolunanlara və sığortalılara icbari tibbi sığorta ilə bağlı ödənişsiz məlumat vermək.

**IV-III fəsil. İcbari tibbi sığortanın maliyyə təminatı**

**Maddə 15-9. İcbari tibbi sığortanın maliyyə mənbələri**

15-9.0. İcbari tibbi sığortanın maliyyə mənbələri aşağıdakılardan ibarətdir:

15-9.0.1. sığorta haqları;

15-9.0.2. dövlət büdcəsinin vəsaiti;

15-9.0.3. subroqasiya hüququnun istifadəsi nəticəsində əldə edilən gəlirlər;

15-9.0.4. icbari tibbi sığorta üzrə sərbəst vəsaitlərin investisiyaya yönəldilməsi nəticəsində əldə edilən gəlirlər;

15-9.0.5. bu qanunun 15-28.3-cü maddəsinə əsasən müəyyən edilən əlavə xidmət haqqı;

15-9.0.6. “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş təqvim haqqından ayırmalar;

15-9.0.7. “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sığorta haqqından ayırmalar;

15-9.0.8. bank kreditləri;

15-9.0.9. “Qrant haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən qrantlar, ianələr və yardımlar;

15-9.0.10. bu qanunun tələblərinin pozulması ilə bağlı tətbiq olunan cərimələrdən və hesablanmış faizlərdən daxilolmalar;

15-9.0.11. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəzərdə tutulan, habelə qanunla qadağan olunmayan digər mənbələr.

**Maddə 15-10. İcbari tibbi sığorta üzrə sığorta haqları**

15-10.1. İcbari tibbi sığorta üzrə sığorta haqları aşağıdakı məbləğlərdə və dərəcələrdə müəyyən edilir:

15-10.1.1. xidmətlər zərfinin baza hissəsi üzrə - təqvim ili üçün adambaşına 29 (iyirmi doqquz) manat;

15-10.1.2. xidmətlər zərfinin əlavə hissəsi üzrə:

15-10.1.2.1. bu qanunun 15-2.3.1-ci və 15-2.3.2-ci maddələrində nəzərdə tutulan şəxslər üzrə:

1. sığortalı tərəfindən - hesablanmış əməyin ödənişi fondunun 2 faizi;

2. sığortaolunan tərəfindən - işçinin əməkhaqqının 2 faizi;

15-10.1.2.2. bu qanunun 15-2.3.3-cü - 15-2.3.6-cı maddələrində nəzərdə tutulan şəxslər üzrə - təqvim ili üçün adambaşına 120 manat.

15-10.1.3. Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininin, dizel yanacağının və maye qazın hər litrinə görə - 0,02 manat;

15-10.1.4. energetik içkilərə (alkoqollu və alkoqolsuz) və elektron siqaret üçün mayeyə aksiz markasının verilməsinə görə - verilən hər bir aksiz markasına görə 0,1 manat;

15-10.1.5. tütün məmulatlarına aksiz markasının verilməsinə görə - verilən hər bir aksiz markasına görə 0,05 manat;

15-10.1.6. alkoqollu içkilərə aksiz markasının verilməsinə görə - verilən hər bir aksiz markasına görə 0,1 manat;

15-10.1.7. “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə ödənilən təqvim haqqının 50 faizi;

15-10.1.8. “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikası Qanununa əsasən sığortalının sığorta müqaviləsi üzrə sığortaçıya ödədiyi sığorta haqqının 5 faizi.

15-10.2. Bu qanunun 15-10.1.1-ci və 15-10.1.2.2-ci maddələrində müəyyən olunmuş sığorta haqları 2021-ci il yanvarın 1-dən etibarən ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əməkhaqqının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq indeksləşdirilir və indeksləşdirilən sığorta haqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet saytında yerləşdirilir.

**Maddə 15-11. İcbari tibbi sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim olunması**

15-11.1. İcbari tibbi sığortanın maliyyə mənbələri üzrə daxil olan vəsaitlər icbari tibbi sığorta fondunda cəmləşdirilir.

15-11.2. Bu qanunun 15-10.1.1-ci maddəsində nəzərdə tutulan sığorta haqları, habelə bu qanunun 15-2.3.3-cü maddəsində göstərilən şəxslər üçün sığorta haqları dövlət büdcəsinin vəsaiti hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən hər ay üçün bərabər hissələrlə növbəti ayın 15-dən gec olmayaraq ödənilir.

15-11.3. Bu qanunun 15-10.1.2.1-ci maddəsində nəzərdə tutulan sığorta haqları sığortalı tərəfindən hər ay üçün hesablanır, əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.

15-11.4. Azərbaycan Respublikasının ərazisində benzinin, dizel yanacağının və maye qazın istehsalı və idxalı ilə məşğul olan vergi ödəyicisi sığorta haqqını aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq ödəyirlər.

15-11.5. Bu qanunun 15-10.1.4-cü - 15-10.1.6-cı maddələrində nəzərdə tutulan icbari tibbi sığorta haqqı vergiödəyicisi tərəfindən həmin aksiz markalarının alınmasına görə dövlət rüsumu ilə eyni vaxtda ödənilir.

15-11.6. Bu qanunun 15-10.1.7-ci maddəsində nəzərdə tutulan icbari tibbi sığorta haqqı İcbari Sığorta Bürosu tərəfindən hər ay üzrə növbəti ayın 20-dək ödənilir.

15-11.7. Bu qanunun 15-10.1.8-ci maddəsində nəzərdə tutulan sığorta haqqını “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan sığortaçılar aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq ödəyirlər.

15-11.8. Bu qanunun 15-2.3.4-cü - 15-2.3.6-cı maddələrində nəzərdə tutulan şəxslər tərəfindən sığorta haqqı icbari tibbi sığorta müqaviləsi bağlandığı tarixdən 30 (otuz) gün müddətində tam məbləğdə və ya həmin müqavilənin bağlandığı tarixdən sığorta ilinin sonunadək olan ayların sayına bölünməklə bərabər hissələrlə hər ay üçün növbəti ayın 15-dən gec olmayaraq ödənilir. Həmin şəxslər tərəfindən sığorta haqqının ödənilməsi üsulu icbari tibbi sığorta müqaviləsində əks olunur.

15-11.9. Bu qanunun 15-2.1-ci və 15-2.3.3-cü maddələrində nəzərdə tutulan şəxslərə dair statistik məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməsi və həmin şəxslər üzrə sığorta haqqının ümumi məbləğinin hesablanması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15-11.10. Bu qanunun 15-2.3.3.2-ci - 15-2.3.3.7-ci maddələrində nəzərdə tutulan şəxslərin həmin maddələrdə nəzərdə tutulan kateqoriyalara aidiyyətinin müəyyən olunması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya resursları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş hədlərdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya resurslarına inteqrasiya olunur.

15-11.11. Bu qanunun 15-2.3.3-cü maddəsinə əsasən sığortalanmalı olan şəxslər həmin maddədə nəzərdə tutulmuş iki və ya daha çox şəxslər kateqoriyasına aid olduğu təqdirdə, həmin şəxslərin xeyrinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yalnız bir dəfə sığorta haqqı ödənilir.

15-11.12. Bu qanunun 15-2.3.4-cü - 15-2.3.6-cı maddələrində nəzərdə tutulan şəxslər bu qanunun 15-2.3.3-cü maddəsində nəzərdə tutulan şəxslər kateqoriyasına aid olub-olmamasından asılı olmayaraq sığorta haqlarını öz vəsaiti hesabına ödəyirlər.

15-11.13. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu qanunun 15-11.2-ci maddəsinə əsasən ödənilən sığorta haqları barədə hesabatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir. Həmin hesabatın forması və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla müəyyən edilir.

15-11.14. Sığortalılar bu qanunun 15-11.3-cü maddəsinə əsasən ödənilən sığorta haqları barədə hesabatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir. Həmin hesabatın forması və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla müəyyən edilir.

15-11.15. Bu qanunun 15-11.4-cü maddəsində nəzərdə tutulan vergiödəyiciləri ödənilən sığorta haqları barədə hesabatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir. Həmin hesabatın forması və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla müəyyən edilir.

15-11.16. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tütün məmulatlarına, alkoqollu içkilərə, energetik içkilərə (alkoqollu və alkoqolsuz) və elektron siqaret üçün mayeyə görə vergiödəyicilərinə verilmiş aksiz markaları barədə hesabatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir. Həmin hesabatın forması və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla müəyyən edilir.

15-11.17. İcbari Sığorta Bürosu tərəfindən bu qanunun 15-11.6-cı maddəsinə əsasən ödənilən sığorta haqları barədə hesabat müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilir. Həmin hesabatın forması və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15-11.18. “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan sığortaçı bu qanunun 15-11.7-ci maddəsinə əsasən ödənilən sığorta haqları barədə hesabatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir. Həmin hesabatın forması və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla müəyyən edilir.

15-11.19. Bu qanunun 15-2.3.6-cı maddəsində nəzərdə tutulan şəxslər tərəfindən (bu qanunun 15-11.21-ci maddəsi nəzərə alınmaqla) icbari tibbi sığorta müqaviləsi sığorta ili ərzində bağlandıqda, bu qanunun 15-10.1.2.2-ci maddəsində müəyyən olunmuş sığorta haqqına icbari tibbi sığorta müqaviləsinin bağlandığı ay da daxil olmaqla gecikdirilmiş hər ay üzrə 10 faiz əlavə sığorta haqqı hesablanır.

15-11.20. Bu qanunun 15-11.19-cu maddəsində nəzərdə tutulan faizlər sığorta haqqının ödənilmədiyi bütün müddətə, lakin bir ildən çox olmamaq şərtilə hesablanır. Ödənilməmiş sığorta haqları və əlavə sığorta haqları üzrə yaranmış borclar cari təqvim ili və əvvəlki son bir təqvim ili üçün hesablanır.

15-11.21. Bu qanunun 15-2.3.3 - 15-2.3.6-cı maddələrində nəzərdə tutulan şəxslər tərəfindən icbari tibbi sığorta müqaviləsini bağlamaq öhdəliyi sığorta ili ərzində yarandıqda, həmin şəxslər üçün icbari tibbi sığorta üzrə sığorta haqqı, bu qanunun 15-10.1.2.2-ci maddəsində müəyyən olunmuş sığorta haqqı 12-yə bölünməklə icbari tibbi sığorta müqaviləsini bağlamaq öhdəliyinin yarandığı ay da daxil olmaqla ilin sonunadək növbəti ayların sayına vurulmaqla hesablanır.

*Ardı 3-cü səh.*

# “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

**IV-IV fəsil. İcbari tibbi sığortanın təşkili**

**Maddə 15-12. İcbari tibbi sığorta üzrə tibbi xidmətlərin göstərilməsi qaydası**

15-12.1. Tibbi xidmətlər sığortaolunanlara xidmətlər zərfinə uyğun olaraq icbari tibbi sığorta fondunun vəsaiti hesabına göstərilir.

15-12.2. Sığorta haqları ödənilmədiyi hallarda xidmətlər zərfinin əlavə hissəsi çərçivəsində göstərilən tibbi xidmətlər pasiyentlərin öz maliyyə vəsaiti hesabına göstərilir.

15-12.3. Bu qanunun 15-2.3.1-ci və 15-2.3.2-ci maddəsində nəzərdə tutulan şəxslər təyin olunduğu və ya seçildiyi orqan (qurum), o cümlədən işəgötürən tərəfindən sığorta haqqının ödənilib ödənilməməsindən asılı olmayaraq sığortaolunan hesab edilir.

**Maddə 15-13. İcbari tibbi sığorta müqaviləsi**

15-13.1. İcbari tibbi sığorta müqaviləsi bu qanunun 15-2.3.4-cü - 15-2.3.6-cı maddələrində nəzərdə tutulmuş şəxslərlə elektron formada və ya kağız daşıyıcıda bağlanılır. Bu maddədə nəzərdə tutulan şəxslərlə növbəti sığorta ili üçün icbari tibbi sığorta müqaviləsi cari ilin dekabrın 31-dək bağlanmalıdır. Bu qanunun 15-2.3.3-cü - 15-2.3.6-cı maddələrində nəzərdə tutulmuş şəxslərlə sığorta müqaviləsini bağlamaq öhdəliyi sığorta ili ərzində yarandıqda, icbari tibbi sığorta müqaviləsi həmin öhdəliyin yarandığı təqvim ayından sonrakı ayın 10-dan gec olmayaraq bağlanılır.

15-13.2. İcbari tibbi sığorta müqaviləsinin nümunəvi forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15-13.3. İcbari tibbi sığorta müqaviləsi üzrə sığorta təminatı Azərbaycan Respublikasının ərazisində qüvvədədir.

15-13.4. İşçinin əmək müqaviləsinə xitam verildiyi hallarda, əmək müqaviləsinə xitam verildiyi tarixdən 1 (bir) ay müddət ərzində həmin şəxsin sığortaolunan statusu saxlanılır.

**Maddə 15-14. Sığorta limiti**

Xidmətlər zərfində nəzərdə tutulduğu təqdirdə, icbari tibbi sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sığorta hadisələrinə görə verdiyi sığorta təminatının ümumi say həddi sığorta limitindən yuxarı ola bilməz.

**Maddə 15-15. İcbari tibbi sığorta üzrə sığorta ödənişi**

15-15.1. Xidmətlər zərfinin baza hissəsində nəzərdə tutulmuş ilkin səhiyyə xidməti üzrə sığorta ödənişi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada tibbi ərazi bölməsinə təhkim olunmuş şəxslərin sayına əsasən ödənilir.

15-15.2. Sığortaolunanların ilkin səhiyyə xidməti üzrə tibbi xidmət göstərən tibbi ərazi bölməsinə təhkim olunma qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15-15.3. Xidmətlər zərfinin əlavə hissəsi üzrə sığortaolunanlara tibbi xidmətlərin göstərilməsi üzrə ödənişlər xidmətlər zərfinə və tariflərinə uyğun olaraq tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilədə qeyd olunmuş həcmdə ödənilir.

15-15.4. Sığorta ödənişlərinin həyata keçirilməsi şərtləri bu qanunun 15-19-cu maddəsində nəzərdə tutulan müqavilə ilə müəyyən edilir.

**Maddə 15-16. İcbari tibbi sığorta üzrə sığorta ödənişindən imtinanın əsasları**

15-16.0. İcbari tibbi sığorta müqaviləsi üzrə aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sığorta ödənişinin verilməsindən imtina edir:

15-16.0.1. xidmətlər zərfinə daxil olmayan tibbi xidmətlərin göstərilməsi ilə bağlı olduqda;

15-16.0.2. tələb mənəvi zərərlə və ya gəlir itkisi ilə bağlı olduqda;

15-16.0.3. sığortaolunanın özü tərəfindən bilavasitə ödənilməli olduğu halda sığorta haqqının bu qanunda nəzərdə tutulan qaydada hər hansı bir hissəsi ödənilməmiş olduğu təqdirdə;

15-16.0.4. sığorta limiti tam olaraq istifadə olunduqda;

15-16.0.5. sığorta müqaviləsinin müddəti bitdikdə.

**Maddə 15-17. Xidmətlər zərfinin tətbiqi dairəsi və strukturu**

15-17.1. Xidmətlər zərfi ambulator-poliklinika şəraitində göstərilən tibbi xidmətləri və stasionar şəraitdə göstərilən tibbi xidmətləri əhatə edir.

15-17.2. Xidmətlər zərfinin strukturu aşağıdakı qaydada müəyyənləşdirilir:

15-17.2.1. xidmətlər zərfinə daxil olan tibbi xidmətlərin siyahısı;

15-17.2.2. xidmətlər zərfinə daxil olan tibbi xidmətlərin tarifi;

15-17.2.3. azadolma məbləği;

15-17.2.4. sığorta limiti;

15-17.2.5. tibbi xidmətlərin göstərilməsi şərtləri.

15-17.3. Tibbi xidmətlərin xidmətlər zərfinə daxil edilməsi və ya tibbi xidmətlərin xidmətlər zərfindən çıxarılması meyarları və qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15-17.4. Xidmətlər zərfi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

**Maddə 15-18. Azadolma məbləği və gözləmə müddəti**

15-18.1. Azadolma məbləği sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin icbari tibbi sığorta təminatı ilə əhatə olunmayan və sığortaolunan tərəfindən ödənilməli hissəsidir.

15-18.2. Azadolma məbləğinin tətbiq edildiyi tibbi xidmətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən xidmətlər zərfi ilə müəyyən edilir.

15-18.3. Gözləmə müddəti sığorta hadisəsi nəticəsində yaranan itkilərin və dəyən zərərin icbari tibbi sığorta təminatı ilə əhatə olunmayan və sığortaolunan tərəfindən ödənilməsini nəzərdə tutan müddətdir.

15-18.4. Gözləmə müddətinin tətbiqi qaydası və həmin müddətin şamil olunacağı şəxslərin kateqoriyası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

**Maddə 15-19. Tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilə**

Tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilənin nümunəvi forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 15-20. Subroqasiya hüququ**

15-20.1. Bu qanunun məqsədləri üçün subroqasiya hüququ sığortaolunan üçün sığorta ödənişi həyata keçirilmiş olduğu təqdirdə, sığortaolunana dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişin həyata keçirilməsini təşkil etmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) istifadə etmək hüququdur.

15-20.2. Xidmətlər zərfinin baza hissəsinin şamil edilmədiyi şəxslərə xidmətlər zərfinin baza hissəsində nəzərdə tutulan tibbi xidmətlər göstərildikdə, həmin şəxslərin eyni risklərdən sığortalanmasını nəzərdə tutan digər sığorta müqaviləsinin mövcud olduğu hallarda, icbari tibbi sığorta üzrə sığorta ödənişini həyata keçirmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin müqavilənin tərəfi olan sığortaçıya qarşı sığorta ödənişi miqdarında subroqasiya hüququndan istifadə etmək hüququna malikdir.

15-20.3. Xidmətlər zərfinin baza hissəsinin şamil edilmədiyi şəxslərə xidmətlər zərfinin baza hissəsində nəzərdə tutulan tibbi xidmətlər göstərildikdə, həmin şəxslərin eyni risklərdən sığortalanmasını nəzərdə tutan digər sığorta müqaviləsinin mövcud olmadığı hallarda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tibb təchizatçısı və ya tibbi ərazi bölməsi tərəfindən göstərilən tibbi xidmətin dəyərini həmin şəxsdən tələb etmək hüququna malikdir. Xidmətlər zərfinin baza hissəsinin şamil edilmədiyi şəxslərin əhatə dairəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 15-21. İcbari tibbi sığorta fondu**

15-21.1. İcbari tibbi sığortanın maliyyə mənbələri icbari tibbi sığorta fondunda cəmləşdirilir və aşağıdakı məqsədlər üçün istifadə edilir:

15-21.1.1. icbari tibbi sığorta ödənişlərinə;

15-21.1.2. bu qanunda nəzərdə tutulmuş qaydada ehtiyatların yaradılmasına;

15-21.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) idarəetmə və fəaliyyət xərclərinin (o cümlədən, saxlanma xərclərinin və işçilərin əməkhaqlarının) maliyyələşdirilməsinə (icbari tibbi sığorta fondunun gəlirlərinin 2 faizindən artıq olmamaqla).

15-21.2. Bu qanunun 15-21.1-ci maddəsində nəzərdə tutulan icbari tibbi sığorta fondunun büdcəsi hər il üçün qanunla təsdiq olunur.

15-21.3. İcbari tibbi sığorta fondunun sərbəst vəsaitləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yerli maliyyə bazarında investisiyaya yönəldilə bilər. İcbari tibbi sığorta fondunun vəsaitlərinin sərbəst vəsaitlərə aid edilməsi və həmin vəsaitlərlə investisiya əməliyyatlarının aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

15-21.4. İlin sonuna icbari tibbi sığorta fondunun istifadə olunmamış vəsaitləri növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 15-22. İcbari tibbi sığorta üzrə sığorta ehtiyatlarının yaradılması**

15-22.1. Sığorta ehtiyatları icbari tibbi sığorta üzrə sığorta ödənişlərinin həyata keçirilməsi üçün öhdəliklərin məcmusuna uyğun olaraq formalaşdırılır.

15-22.2. Sığorta ehtiyatları makroiqtisadi risk ehtiyatlarına və cari ehtiyatlara bölünür.

15-22.3. Makroiqtisadi risk ehtiyatları icbari tibbi sığortaya makroiqtisadi təsir risklərinin aradan qaldırılması və ya təsir dərəcəsinin aşağı salınması məqsədilə yaradılır. Makroiqtisadi risk ehtiyatları icbari tibbi fondunun gəlirlərinin 4 faizi həcmində təşkil edilir.

15-22.4. Cari ehtiyatlar icbari tibbi sığortada cari öhdəliklərin təmin edilməsi məqsədilə yaradılır. Cari ehtiyatlar icbari tibbi sığorta fondunun gəlirlərinin 6 faizi həcmində təşkil edilir.

15-22.5. Bu qanunun 15-22.3-cü və 15-22.4-cü maddələrində nəzərdə tutulan ehtiyatlardan istifadəsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 15-23. İcbari tibbi sığorta üzrə tibbi xidmətlərin tarifləri**

15-23.1. İcbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin tarifləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15-23.2. İcbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin tariflərinin hesablanması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 15-24. İcbari tibbi sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət**

15-24.1. İcbari tibbi sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

15-24.2. İcbari tibbi sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət, sığorta haqqı üzrə yaranmış borcların alınması, icbari tibbi sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanması və artıq ödənilmiş sığorta haqqının qaytarılması Azərbaycan Respublikasının Vergi Məcəlləsində vergilər üzrə müəyyən olunmuş qaydada həyata keçirilir.

**Maddə 15-25. İcbari tibbi sığorta üzrə uçot və hesabat**

15-25.1. İcbari tibbi sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatının təqdim olunması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15-25.2. Tibb təchizatçısı və ya tibbi ərazi bölməsi tərəfindən icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**IV-V fəsil. İcbari tibbi sığorta üzrə göstərilən tibbi xidmətlərə nəzarətin həyata keçirilməsi**

**Maddə 15-26. Tibbi xidmətin həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə nəzarət**

15-26.1. İcbari tibbi sığorta çərçivəsində və bu qanunun 15-19-cu maddəsində nəzərdə tutulan müqavilənin şərtlərinə uyğun olaraq göstərilən tibbi xidmətin həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

15-26.2. İcbari tibbi sığorta çərçivəsində və bu qanunun 15-19-cu maddəsində nəzərdə tutulan müqavilənin şərtlərinə uyğun olaraq göstərilən tibbi xidmətin həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə nəzarət iqtisadi ekspertiza və tibbi xidmətin keyfiyyətinin ekspertizası vasitəsilə həyata keçirilir.

15-26.3. İqtisadi ekspertiza göstərilmiş tibbi xidmətin müddətlərinin və həcminin, o cümlədən tibb təchizatçısı və ya tibbi ərazi bölməsi tərəfindən hesablanmış sığorta ödənişi məbləğinin tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilənin şərtlərinə, ilkin tibbi sənədlərə və tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin hesabat sənədlərinə uyğunluğunu müəyyən edir. İqtisadi ekspertizanın aparılması və nəticələrinin rəsmiləşdirilməsi qaydası, habelə ekspertizanı aparan ekspertlərə dair tələblər, ilkin tibbi sənədlərin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15-26.4. Tibbi xidmətin keyfiyyətinin ekspertizası tibbi xidmətlərin vaxtında göstərilib göstərilməməsinin, o cümlədən profilaktika, diaqnostika, müalicə və reabilitasiya metodlarının düzgün seçilib-seçilməməsinin, habelə tibbi xidmətin göstərilməsi zamanı yol verilən pozuntuların aşkar edilməsi məqsədilə aparılır. Tibbi xidmətin keyfiyyətinin ekspertizasının aparılması və nəticələrinin rəsmiləşdirilməsi qaydası, habelə ekspertizanı aparan ekspertlərə dair tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 15-27. İcbari tibbi sığorta üzrə məlumat bazası**

15-27.1. İcbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların elektron qaydada həyata keçirilməsinin təmin edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən icbari tibbi sığorta üzrə məlumat bazası (elektron informasiya ehtiyatı) yaradılır.

15-27.2. İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 15-28. İcbari tibbi sığorta üzrə göndəriş sisteminin tətbiqi**

15-28.1. Sığortaolunanların xidmətlər zərfinin əlavə hissəsi çərçivəsində ambulator-poliklinika müəssisələrində göstərilən tibbi xidmətlərdən, habelə laborator, instrumental müayinələrdən istifadəsinə ilkin səhiyyə xidmətlərini göstərən tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin göndərişinə əsasən yol verilir.

15-28.2. Sığortaolunanların xidmətlər zərfinin əlavə hissəsi çərçivəsində stasionar tibbi xidmətlərdən istifadəsinə təcili və təxirəsalınmaz tibbi yardım xidməti göstərən tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin, habelə ambulator-poliklinika müəssisəsinin göndərişinə əsasən yol verilir.

15-28.3. İlkin səhiyyə xidmətinə müraciət etmədən birbaşa ambulator-poliklinika müəssisəsinə və ya laborator, instrumental, habelə stasionar tibbi xidmətlərdən istifadə edildikdə sığortaolunan tibb təchizatçısına və ya tibbi ərazi bölməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən məbləğdə xidmət haqqı ödəməlidir.

**Maddə 15-29. Növbəlilik rejimi**

15-29.1. Xidmətlər zərfində nəzərdə tutulduğu təqdirdə, xidmətlər zərfinin əlavə hissəsinə daxil olan tibbi xidmətlərdən istifadə edilməsi növbəlilik rejimi əsasında həyata keçirilir.

15-29.2. Bu qanunun 15-29.1-ci maddəsində nəzərdə tutulan növbəlilik rejiminin tətbiqi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.”;

1.18. 16-cı maddə üzrə:

1.18.1. birinci - beşinci hissələr müvafiq olaraq 16.1-ci - 16.5-ci maddələr hesab edilsin;

1.18.2. 16.2-ci maddədə “müəssisəsi” sözü “təchizatçısı” sözü ilə əvəz edilsin, “tibbi sığorta” sözlərindən əvvəl “könüllü” sözü əlavə edilsin;

1.18.3. 16.3-cü maddədə “müəssisələri” sözü “təchizatçıları” sözü ilə əvəz edilsin və hər iki halda “tibbi sığorta” sözlərindən əvvəl “könüllü” sözü əlavə edilsin, “tibbi sığorta təşkilatı” sözləri “sığortaçı” sözü ilə əvəz edilsin;

1.18.4. 16.4-cü maddədə “Tibbi sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə görə tibbi sığorta təşkilatı” sözləri “Könüllü tibbi sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə görə sığortaçı” sözləri ilə əvəz edilsin;

1.19. aşağıdakı məzmunda 16-1 - 16-3-cü maddələr əlavə edilsin:

**“Maddə 16-1. Sənədlərin saxlanması qaydası və müddəti**

16-1.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), tibb təchizatçıları və tibbi ərazi bölmələri sığorta statistikasını, sənədlərin uçotunu aparmalı və sənədlərin saxlanmasını təmin etməlidirlər.

16-1.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), tibb təchizatçıları və tibbi ərazi bölmələri tərəfindən həyata keçirilən sığorta əməliyyatlarına dair sənədləri, habelə belə əməliyyatlar üzrə elektron daşıyıcılarda olan məlumatları müvafiq hüquq münasibətlərinə xitam verildikdən sonra ən azı beş il müddətində saxlamalıdırlar.

**Maddə 16-2. İcbari tibbi sığortanın və dövlət proqramlarının qarşılıqlı əlaqəsi**

Dövlət proqramları vasitəsilə maliyyələşən tibbi xidmət növlərinə icbari tibbi sığorta şamil edilmir.

**Maddə 16-3. Cərimələrin və faizlərin istifadəsi qaydası**

Bu qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən və faizlərdən toplanan vəsaitin 25 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanının (qurumun) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesablarına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.”.

**Maddə 2.** Bu qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

# “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. həmin qanunun 15-11.10-cu maddəsinə uyğun olaraq, informasiya resursları İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin informasiya resurslarına inteqrasiya olunmalı dövlət orqanları (qurumları) ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin, habelə həmin dövlət orqanlarının (qurumlarının) informasiya resurslarının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin informasiya resurslarına inteqrasiyasının hədlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.4. həmin qanunun 15-2.7-ci maddəsinə və 15-20.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun şamil edilmədiyi şəxslərin, habelə xidmətlər zərfinin baza hissəsinin şamil edilmədiyi şəxslərin əhatə dairəsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.5. həmin qanunun 6.1.1-ci maddəsinə uyğun olaraq, könüllü tibbi sığorta müqaviləsinin formasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.6. həmin qanunun 15-6.3-cü maddəsinə uyğun olaraq, sığortalı və sığortaolunanların fərdi uçotunun aparılması qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.7. həmin qanunun 15-19-cu maddəsinə uyğun olaraq, tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilənin nümunəvi formasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.8. həmin qanunun 15-25.1-ci maddəsinə uyğun olaraq, icbari tibbi sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatının təqdim edilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.9. həmin qanunun 15-25.2-ci maddəsinə uyğun olaraq, tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin icbari tibbi sığorta çərçivəsində göstərdiyi tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. beş ay müddətində:

1.2.1. həmin qanunun 16-3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin hesabına köçürülən vəsaitdən istifadə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.2.2. həmin qanunun 15-22.5-ci maddəsinə uyğun olaraq, makroiqtisadi risk ehtiyatlarından və cari ehtiyatlardan istifadə qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2.3. həmin qanunun 15-27.2-ci maddəsinə uyğun olaraq, icbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə qaydasını, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısını, həmin məlumatlara buraxılış dərəcəsini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2.4. həmin qanunun 15-29.2-ci maddəsinə uyğun olaraq, növbəlilik rejiminin tətbiqi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. yeddi ay müddətində:

1.3.1. həmin qanunun 15-3.1-ci maddəsinə uyğun olaraq, icbari tibbi sığortada iştirak etmək hüququ olan tibb təchizatçıları və ya tibbi ərazi bölmələri üçün tələbləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.3.2. həmin qanunun 15-11.9-cu maddəsinə uyğun olaraq, statistik məlumatların təqdim edilməsi və sığorta haqqının ümumi məbləğinin hesablanması qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3.3. həmin qanunun 15-11.17-ci maddəsinə uyğun olaraq, hesabatın formasını və təqdim edilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3.4. həmin qanunun 15-13.2-ci maddəsinə uyğun olaraq, icbari tibbi sığorta müqaviləsinin nümunəvi formasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3.5. həmin qanunun 15-15.2-ci maddəsinə uyğun olaraq, sığortaolunanların ilkin səhiyyə xidməti üzrə tibbi ərazi bölməsinə təhkimolunma qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3.6. həmin qanunun 15-18.4-cü maddəsinə uyğun olaraq, gözləmə müddətinin tətbiqi qaydasının və həmin müddətin şamil olunacağı şəxslərin kateqoriyasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3.7. həmin qanunun 15-26.3-cü və 15-26.4-cü maddələrinin ikinci cümlələrinə uyğun olaraq, iqtisadi ekspertizanın və tibbi xidmətin keyfiyyətinin ekspertizasının aparılması və nəticələrinin rəsmiləşdirilməsi qaydasını, habelə ekspertizanı aparan ekspertlərə dair tələbləri və ilkin tibbi sənədlərin siyahısını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

2.1. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-11.13-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, hesabatın formasını və təqdim edilməsi qaydasını İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla bir ay müddətində müəyyən etsin;

2.2. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Vergilər Nazirliyi:

3.1. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-11.14 - 15-11.16-cı maddələrinin ikinci cümlələrinə uyğun olaraq, hesabatın formasını və təqdim edilməsi qaydasını İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla bir ay müddətində müəyyən etsin;

3.2. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası:

4.1. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-11.18-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, hesabatın formasını və təqdim edilməsi qaydasını İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla dörd ay müddətində müəyyən etsin;

4.2. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. İcbari Sığorta üzrə Dövlət Agentliyi:

5.1. beş ay müddətində:

5.1.1. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-17.3-cü maddəsinə uyğun olaraq, tibbi xidmətlərin xidmətlər zərfinə daxil edilməsi və ya tibbi xidmətlərin xidmətlər zərfindən çıxarılması meyarlarının və qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.1.2. həmin qanunun 15-17.4-cü maddəsinə uyğun olaraq, xidmətlər zərfi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.1.3. həmin qanunun 15-23.1-ci maddəsinə uyğun olaraq, icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin tarifləri barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.1.4. həmin qanunun 15-23.2-ci maddəsinə uyğun olaraq, icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin tariflərinin hesablanması qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.1.5. həmin qanunun 15-27.1-ci maddəsinə uyğun olaraq, icbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) yaradılmasını təmin etsin;

5.1.6. həmin qanunun 15-28.3-cü maddəsinə uyğun olaraq, xidmət haqqının məbləği ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

6. Müəyyən edilsin ki:

6.1. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.5-ci, 1.0.13-cü, 6.1.1-ci, 7.2-ci, 15-2.2-ci, 15-2.3.1-ci, 15.2.4-cü, 15-2.5-ci, 15-2.7-ci, 15-2.8-ci, 15-3.1 - 15-3.3-cü, 15-4.1.6-cı, 15-5.1.1-ci, 15-6.1-ci, 15-6.2-ci, 15-6.3-cü, 15-7.1.3-cü, 15-7.1.4-cü, 15-7.2.4-cü, 15-7.2.5-ci, 15-9.0.11-ci, 15-10.2-ci (hər iki halda), 15-11.2-ci, 15-11.9-cu (hər iki halda), 15-11.10-cu (hər üç halda), 15-11.11-ci maddələrində, 15-11.13-cü maddəsinin birinci (hər iki halda) və ikinci (hər iki halda) cümlələrində, 15-11.14-cü maddəsinin birinci və ikinci (hər iki halda) cümlələrində, 15-11.15-ci maddəsinin birinci və ikinci (hər iki halda) cümlələrində, 15-11.16-cı maddəsinin birinci (hər iki halda) və ikinci (hər iki halda) cümlələrində, 15-11.17-ci maddəsinin birinci və ikinci cümlələrində, 15-11.18-ci maddəsinin birinci və ikinci (hər iki halda) cümlələrində, 15-13.2-ci, 15-14-cü, 15-15.1-ci, 15-15.2-ci, 15-16.0-cı, 15-17.3-cü, 15-17.4-cü, 15-18.2-ci, 15-18.4-cü, 15-19-cu, 15-20.1-ci, 15-20.2-ci maddələrində, 15-20.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 15-21.1.3-cü maddəsində, 15-21.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 15-22.5-ci, 15-23.1-ci, 15-23.2-ci, 15-24.1-ci, 15-25.1-ci, 15-25.2-ci, 15-26.1-ci maddələrində, 15-26.3-cü maddəsinin ikinci cümləsində, 15-26.4-cü maddəsinin ikinci cümləsində, 15-27.1-ci, 15-27.2-ci, 15-28.3-cü, 15-29.2-ci, 16-1.1-ci, 16-1.2-ci maddələrində, 16-3-cü maddəsinin birinci (hər üç halda) və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

6.2. həmin qanunun 15-2.3.1-ci, 15-2.4-cü, 15-9.0.11-ci, 15-17.3-cü, 15-17.4-cü, 15-18.2-ci maddələrində, 15-21.3-cü maddəsinin ikinci cümləsində, 15-23.1-ci, 15-23.2-ci və 15-28.3-cü maddələrində “orqan” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

6.3. həmin qanunun 6.1.1-ci, 15-2.7-ci, 15-2.8-ci, 15-3.1-ci, 15-6.3-cü, 15-11.9-cu (ikinci halda), 15-11.10-cu (ikinci halda) maddələrində, 15-11.17-ci maddəsinin ikinci cümləsində, 15-13.2-ci, 15-15.1-ci, 15-15.2-ci, 15-18.4-cü, 15-19-cu maddələrində, 15-20.3-cü maddəsinin ikinci cümləsində, 15-22.5-ci, 15-25.1-ci, 15-25.2-ci maddələrində, 15-26.3-cü maddəsinin ikinci cümləsində, 15-26.4-cü maddəsinin ikinci cümləsində, 15-27.2-ci və 15-29.2-ci maddələrində “orqan” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

6.4. həmin qanunun 16-3-cü maddəsinin birinci cümləsində “orqanın (qurumun) işçiləri” dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Dövlət Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin işçiləri nəzərdə tutulur;

6.5. həmin qanunun 16-3-cü maddəsinin birinci (ikinci halda) cümləsində “orqan (qurum)” dedikdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

6.6. həmin qanunun 16-3-cü maddəsinin birinci (üçüncü halda) cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

6.7. həmin qanunun 16-3-cü maddəsinin ikinci cümləsində “orqan” dedikdə vəsaitin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikasının Dövlət Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin işçilərinə münasibətdə) nəzərdə tutulur;

6.8. həmin qanunun 15-2.2-ci, 15-2.5-ci, 15-11.2-ci, 15-11.11-ci maddələrində, 15-11.13-cü maddəsinin birinci (birinci halda) və ikinci (birinci halda) cümlələrində “orqan” dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

6.9. həmin qanunun 15-11.14-cü maddəsinin birinci və ikinci (birinci halda) cümlələrində, 15-11.15-ci maddəsinin birinci və ikinci (birinci halda) cümlələrində, 15-11.16-cı maddəsinin birinci (birinci halda) və ikinci (birinci halda) cümlələrində və 15-24.1-ci maddəsində “orqan” dedikdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi nəzərdə tutulur;

6.10. həmin qanunun 15-6.2-ci maddəsində “orqan” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (“Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-2.3.1-ci və 15-2.3.2-ci maddələrinə münasibətdə) və Azərbaycan Respublikasının Vergilər Nazirliyi (“Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-2.3.4-cü və 15-2.3.5-ci maddələrinə münasibətdə) nəzərdə tutulur;

6.11. həmin qanunun 15-10.2-ci maddəsində (birinci halda) “orqan” dedikdə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi nəzərdə tutulur;

6.12. həmin qanunun 1.0.5-ci, 1.0.13-cü, 15-3.2-ci, 15-3.3-cü, 15-4.1.6-cı, 15-5.1.1-ci, 15-6.1-ci, 15-7.1.3-cü, 15-7.1.4-cü, 15-7.2.4-cü, 15-7.2.5-ci, 15-10.2-ci (ikinci halda), 15-11.9-cu (birinci halda), 15-11.10-cu (üçüncü halda) maddələrində, 15-11.13-cü maddəsinin birinci (ikinci halda) və ikinci (ikinci halda) cümlələrində, 15-11.14-cü maddəsinin ikinci (ikinci halda) cümləsində, 15-11.15-ci maddəsinin ikinci (ikinci halda) cümləsində, 15-11.16-cı maddəsinin birinci (ikinci halda) və ikinci (ikinci halda) cümlələrində, 15-11.17-ci maddəsinin birinci cümləsində, 15-11.18-ci maddəsinin birinci və ikinci (ikinci halda) cümlələrində, 15-14-cü, 15-16.0-cı, 15-20.1-ci, 15-20.2-ci maddələrində, 15-20.3-cü maddəsinin birinci cümləsində, 15-21.1.3-cü maddəsində, 15-21.3-cü maddəsinin birinci cümləsində, 15-26.1-ci, 15-27.1-ci, 16-1.1-ci və 16-1.2-ci maddələrində “qurum” dedikdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

6.13. həmin qanunun 7.2-ci maddəsində və 15-11.18-ci maddəsinin ikinci (birinci halda) cümləsində “qurum” dedikdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası nəzərdə tutulur.

7. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 20; 2003, № 10, maddə 585; 2008, № 8, maddə 716; 2016, № 6, maddə 1060; 2018, № 2, maddə 212, № 8, maddə 1696) ləğv edilsin.

8. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər icbari tibbi sığortanın tətbiqi, habelə “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələlərin həlli ilə bağlı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə müvafiq kömək göstərilməsini təmin etsinlər.

9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12, I kitab, maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12, I kitab, maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 7, maddələr 1415, 1444, № 8, maddə 1675; Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1345-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 4.1-ci maddədə "4.1-1-ci və 4.1-2-ci" sözləri "4.1-1 - 4.1-3-cü" sözləri ilə əvəz edilsin.

2. 4.1-3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"4.1-3. Bu qanunun 33-5-ci maddəsinə uyğun olaraq mobil cihazların qeydiyyatına görə ödənilən dövlət rüsumunun 30 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mobil cihazların qeydiyyatı sisteminin saxlanılmasını təmin etmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) xəzinə hesabına köçürülür, qalan hissəsi isə dövlət büdcəsinə ödənilir.".

3. aşağıdakı məzmunda 4.1-4-cü maddə əlavə edilsin:

"4.1-4. Bu qanunun 4.1-ci və 4.1-1 - 4.1-3-cü maddələrində nəzərdə tutulan vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1434-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar bir sıra tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1434-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767; 2006, № 12, maddə 1057; 2008, № 9, maddə 798; 2012, № 6, maddə 547, № 12, maddə 1271; 2013, № 11, maddə 1327, № 12, maddə 1510; 2014, № 4, maddə 360; 2016, № 1, maddə 43, № 5, maddə 883, № 9, maddə 1463, № 11, maddə 1807; 2017, № 3, maddə 370, № 5, maddə 757, № 7, maddə 1377, № 10, maddə 1804, № 12 (I kitab), maddə 2293; 2018, № 7 (I kitab), maddə 1489; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 395 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "4.1-3-cü" sözlərindən sonra "(hər üç halda), 4.1-4-cü," sözləri əlavə edilsin;

2.2. 2.1-1-ci bənddə "4.1-3-cü" sözləri "4.1-4-cü" sözləri ilə, "və 4.1-2-ci maddəsində isə" sözləri ", 4.1-2-ci maddəsində" sözləri ilə əvəz edilsin, həmin bəndə birinci halda "işçilərinə" sözündən sonra ", 4.1-3-cü maddəsində isə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin işçilərinə və mobil cihazların qeydiyyatı sisteminə" sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 2-1.10-cu və 2-1.11-ci bəndlər əlavə edilsin:

"2.1-10. həmin qanunun 4.1-3-cü maddəsində "orqanın işçiləri" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, həmçinin Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin işçiləri nəzərdə tutulurlar;

2.1-11. həmin qanunun 4.1-3-cü maddəsində (ikinci halda) "orqan" dedikdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzərdə tutulur;

2.1-12. həmin qanunun 4.1-3-cü maddəsində (üçüncü halda) "orqan" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzərdə tutulur;".

3. "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 may tarixli 1358 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 762, № 11, maddə 2023, № 12 (I kitab), maddə 2343; 2018, № 6, maddə 1235, № 9, maddə 1842; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 398 nömrəli və 27 dekabr tarixli 446 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 2.14-cü bənd əlavə edilsin:

"2.14. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-3-cü maddəsinə əsasən həmin qanunun 33-5-ci maddəsinə uyğun olaraq mobil cihazların qeydiyyatına görə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə ödənilən dövlət rüsumunun 30 faizi aşağıdakı kimi bölüşdürülür:

2.14.1. 5 faiz Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının hesabına köçürülür;

2.14.2. 25 faiz Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq, habelə Nazirliyin mobil cihazların qeydiyyatı sisteminin saxlanılmasını təmin etmək məqsədi ilə həmin Nazirliyin hesabına köçürülür.";

3.2. həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının hesabına köçürülən vəsaitdən istifadə Qaydası" üzrə:

3.2.1. 1.5-ci bənddə "2.1.13-cü" sözləri "2.1.14-cü" sözləri ilə əvəz edilsin;

3.2.2. 2.1.13-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.14-cü yarımbənd əlavə edilsin:

"2.1.14. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-3-cü maddəsinə əsasən həmin qanunun 33-5-ci maddəsinə uyğun olaraq mobil cihazların qeydiyyatına görə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə ödənilən dövlət rüsumu.";

3.2.3. həmin qaydaya Əlavənin "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xüsusi xəzinə hesabına köçürülən vəsait barədə məlumat" cədvəlinə aşağıdakı məzmunda 14-cü hissə əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 14. | "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-3-cü maddəsinə əsasən həmin qanunun 33-5-ci maddəsinə uyğun olaraq mobil cihazların qeydiyyatına görə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə ödənilən dövlət rüsumu | | | | |

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.5.11-1-ci yarımbənd əlavə edilsin:

"5.5.11-1. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin sərəncamçısı olaraq, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Nazirliyin struktur bölmələrinin, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyində olan qurumların işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;".

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

## "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 572; 2011, № 12, maddə 1089; 2013, № 11, maddə 1318; 2014, № 1, maddə 9, № 7, maddə 777; 2015, № 2, maddələr 74, 96, № 3, maddə 253; 2016, № 2, I kitab, maddə 184, № 3, maddə 416; 2017, № 7, maddə 1290; 2018, № 10, maddə 1961) aşağıdakı məzmunda 14.2-1-ci maddə əlavə edilsin:

"14.2-1. Bu qanunun 14.2-ci maddəsinə uyğun olaraq sığortalı tərəfindən sığortaçıya icbari sığorta müqaviləsinə uyğun olaraq ödənilən sığorta haqqının 5 faizi "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən yaradılan icbari tibbi sığorta fonduna ödənilir.".

**Maddə 2.** Bu qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

## "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Məşğulluq haqqında" və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı və 27-ci bəndlərini rəhbər tutaraq, "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 572; 2011, № 12, maddə 1089; 2013, № 11, maddə 1318; 2014, № 1, maddə 9, № 7, maddə 777; 2015, № 2, maddələr 74, 96, № 3, maddə 253; 2016, № 2, I kitab, maddə 184, № 3, maddə 416; 2017, № 7, maddə 1290; 2018, № 10, maddə 1961) 1-ci maddəsinin mətni 1.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 1.2-ci maddə əlavə edilsin:

"1.2. Ələt azad iqtisadi zonasında istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 2.** "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669) aşağıdakı məzmunda 2.3-cü maddə əlavə edilsin:

"2.3. Ələt azad iqtisadi zonasında məşğulluqla bağlı münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 3.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, №11, maddə 923, №12, maddə 1018; 2007, № 1, maddə 4, №12, maddə 1193; 2008, №2, maddə 49, № 4, maddə 254, №6, maddə 462, №7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279; 2018, № 3, maddələr 369, 396, № 5, maddələr 870, 894 ) 7-ci maddəsinə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Ələt azad iqtisadi zonasında sosial sığorta sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 4.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2, I kitab, maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12, I kitab, maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7, I kitab, maddələr 1380, 1408) 4-cü maddəsinə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Ələt azad iqtisadi zonasında əmək münasibətləri "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

## "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1443-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1443-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

## Dövlət başçısına minnətdarlıq

## Şəhid ailələri yüksək qayğı ilə əhatə olunublar

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin ilk dəfə Prezident seçilərkən söylədiyi: "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam", - ifadəsi hər birimizə qürur verməklə, real həyatda çoxdan öz təsdiqini tapmışdır. Çünki Prezident bütün fəaliyyətində vətəndaş amilinə xüsusi önəm verib, onun sosial siyasətinin əsasında əhalinin rifah halının yaxşılaşdırılması dayanır.

Torpaqlarımız uğrunda şəhid olanların ailə üzvlərinin, Qarabağ müharibəsi əlillərinin və veteranlarının, bu kateqoriyadan olan digər şəxslərin də sosial məişət şəraitinin yaxşılaşdırılması ölkə rəhbərliyinin daimi diqqət mərkəzindədir. Bir neçə gün əvvəl Prezident cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Prezident sarayında şəhid ailələri ilə keçirilən görüşü də bunun bariz nümünəsidir.

Ötənilki Prezident seçkilərindən sonra dövlət başçısı tərəfindən imzalanan ilk fərmanla on minə yaxın şəhid ailəsinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsinin qərara alınması, Prezidentin bir neçə gün əvvəl imzaladığı fərmanla vaxtilə müavinət almış şəhid ailələrinin əhatə dairəsinin genişləndirilməsi bu qəbildən atılan ən humanist addım kimi diqqət çəkdi.

Prezidentin son günlər imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövliyi uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədər xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" və "Şəhid ailəsi üçün Azərbaycan Respublkası Prezidentinin təqaüdünün artırılması haqqında" fərman və sərəncamlar hər yerdə sonsuz minnətdarlıqla qarşılanmışdır. Bu qayğıya görə dövlət başçımıza dərin təşəkkürümüzü bildiririk.

Mən Milli Qəhrəman atası kimi keçirilən tədbirlərə tez-tez dəvət alıram. Xüsusilə şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranları ilə keçirilən görüşlərdə yaxından iştirak edirəm, bu görüşlər zamanı şəhid ailələrinin, müharibə əlillərinin dövlət başçısı cənab İlham Əliyevə dərin minnətdarlığının şahidi oluram.

Biləsuvar rayonunda da şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranları yüksək dövlət qayğısı ilə əhatə olunmuşlar. Hazırda rayonda 126 şəhid və itkin ailəsi, 129 Qarabağ müharibəsi əlili var. Ötən müddətdə rayonda şəhid ailələri üçün 24, 16 və 8 mənzilli olmaqla 4 yaşayış binası, 18 fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir. 44 şəhid ailəsi minik avtomobili ilə təmin olunmuşdur. Bir çox şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə şəxsi fəaliyyətlərini qurmaq üçün torpaq sahələri ayrılmışdır. Bu kateqoriyadan olan insanların qayğı və problemləri rayon rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır.

***Ağakərim İBRAHİMOV,***
***Milli Qəhrəman Mübariz İbrahimovun atası***

## Qayğının növbəti təzahürü

Lerik rayonundakı Pirasora kəndinin cavanlarından beşi Qarabağ döyüşlərində şəhidlik zirvəsinə yüksəlib. Bütün şəhid ailələri kimi onların da ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın yanvar ayının 28-də Prezident sarayında şəhid ailələri ilə görüşündən pirasoralılar da məmnun qalıblar. Bu barədə hər yerdə dövlət başçısının xalqa layiqli xidmət nümunəsindən söhbət açılır, iki gün sonra Prezidentin şəhid ailələrinə verilən təqaüdün artırılması barədə fərmanından məmnunluqlarını bildirirlər.

Şəhid Ruslan Ağayevin atası Qalib kişi deyir ki, Prezident İlham Əliyev bizim ən böyük hamimizdir. O, bunu növbəti dəfə də nümayiş etdirdi. Torpaqlarımızın uğrunda həlak olmuş igidlərin ailələri ilə görüşdü, fərmanla bizə ayrılan təqaüdü artırıb 300 manata çatdırdı. Əgər bu gün Qarabağın azad edilməsi uğrunda səfərbərliyə əmr verərsə, nəvələrimi də göndərməyə hazıram.

Şahrza Təhməzov dedi ki, oğlum Azərin şəhid olmasından neçə illər keçsə də, xatirəsi həmişə yad edilir. Ölümündən sonra Prezidentin sərəncamı ilə Azər medalla təltif olunub. Kəndimizdəki orta məktəb onun adını daşıyır. Təqaüdün artırılması şəhid ailələrinə ölkəmizin rəhbərinin hörmət və etiramının növbəti təzahürüdür.

Pürüzə nənə kəndin sayılıb-seçilən ağbirçəklərindəndir. Övladı Valehin qəhrəmancasına həlak olması ürəyinə dağ çəkib. O da Prezidentin şəhid ailələrinə qayğısından ağızdolusu danışdı. Dedi ki, oğlum mənim üçün sağdır. Vətən yolunda canından keçənlər heç vaxt ölmürlər. Bizi həmişə yada salan rəhbərimizə cansağlığı, uzun ömür arzulayıram.

Şəhid Bəxtiyarın atası Əlifağa Bayramov söylədi ki, bizim çox igidlərimiz vətən yolunda canlarından keçiblər. Belə igidlərimiz bu gün də var. Onlar hər gün torpaqlarımızı işğaldan azad etməyə hazırdır. Dövlət başçısının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll etmək sahəsindəki fəaliyyətini bəyənirik. Yox əgər ermənilər buna getməsə, doğma yurdlarımızı hərb yolu ilə geri qaytarmağa hər birimiz hazırıq.

Bizə göstərilən diqqətdən razıyıq, buna görə Prezidentə, Mehriban xanıma minnətdarıq. Bu minnətdarlığa şəhid İlkinin valideyni Tarqulu Ələkbərov da qoşuldu.

***Həmzə VƏLİMƏMMƏDOV,***
***əməkdar jurnalist***

# Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirilib

*Əvvəli 1-ci səh.*

Sonra ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.

Toplantıda dövlət gənclər siyasəti ilə bağlı videoçarx nümayiş olunub, ümummilli lider Heydər Əliyevin və dövlət başçısı İlham Əliyevin gənclərlə bağlı fikirləri səsləndirilib.

Cəbhə bölgəsindən gəlmiş gənc zabit, mayor **Orxan Rüstəmov** qeyd edib ki, bir gün əvvəl Gənclər Günü münasibətilə keçirilən respublika toplantısında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin proqram xarakterli nitqi hər bir vətən əsgərinin də döyüş ruhunu, vətənpərvərlik hissini artırıb. Bu gün biz bura Prezidentimizə, vətənimizə, xalqımıza, dövlətimizə sədaqətimizi bəyan etmək üçün toplaşmışıq.

Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri **Fuad Ələsgərov** tədbirdə çıxış edərək hərbçi gənclərimizi Azərbaycan Gəncləri Günü münasibətilə təbrik edib. Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan Gəncləri Gününün təsis edilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Gənclərə xüsusi qayğının Azərbaycan Prezidenti İlham Əliyevin də daim diqqət mərkəzində olduğunu qeyd edən Fuad Ələsgərov deyib ki, dövlət başçısının sərəncamları ilə təsdiq edilən gənclər sahəsində strategiya və dövlət proqramlarının məqsədi ölkəmizdə gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı potensialının üzə çıxarılmasını dəstəkləməkdir.

Fuad Ələsgərov dövlət başçısının Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında gənclərə tövsiyələr verməsini, fəal gənclərin bir qrupunu mükafatlarla təltif etməsini ölkə gəncliyinə göstərilən yüksək diqqət və qayğının təzahürü olduğunu vurğulayıb. Qeyd olunub ki, bu gün Azərbaycan gəncliyi ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir. Silahlı Qüvvələrimizdə xidmət edən əsgər və zabitlərin böyük əksəriyyəti gənclərdən ibarətdir. Minlərlə gənc əsgər və zabitimiz təcavüzkar Ermənistan ordusuna qarşı döyüşlərdə qəhrəmanlıq göstərib, vətən uğrunda canlarını və sağlamlıqlarını qurban verib, adlarını müasir hərb tariximizə qızıl hərflərlə yazdırıblar. 2016-cı ilin Aprel döyüşləri zamanı xalqımıza qələbə sevinci bəxş edən döyüşçülərin arasında gənclər çoxluq təşkil edirdi.

Düşmənə qarşı hərbi əməliyyatlarda şücaət göstərmiş qəhrəman əsgər və zabitlərimizlə xalqımızın qürur duyduğunu vurğulayan Prezidentin köməkçisi deyib: "Torpaqları hələ də işğal altında olan Azərbaycan üçün ordu quruculuğu ən vacib məsələlərdən biridir. Bu sahədə indiyədək çox iş görülüb. Azərbaycan hərbi-texniki sahədə dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığı inkişaf etdirib, ordumuz ən müasir silahlar, reaktiv artilleriya və hava hücumundan müdafiə sistemləri, hərbi təyyarələr, gəmilər və digər texnika ilə təchiz olunub. Bununla yanaşı, ölkəmizdə güclü müdafiə sənayesi yaradılıb, 20-dən çox hərbi zavod inşa edilib. Bu zavodlarda 1200 adda hərbi təyinatlı məhsullar istehsal olunur".

Görülmüş işlərin nəticəsi olaraq bu gün Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında yer aldığını vurğulayan Fuad Ələsgərov bildirib ki, 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin mayında aparılmış uğurlu əməliyyat nəticəsində torpaqlarımızın bir hissəsi işğaldan azad edilib, strateji yüksəkliklər ordumuzun nəzarəti altına keçib. Böyük məharət və peşəkarlıqla həyata keçirilmiş bu əməliyyatlar Azərbaycan hərbçilərinin qəhrəmanlığını, ordumuzun yüksək döyüş qabiliyyətini bir daha nümayiş etdirib.

Xüsusi vurğulanıb ki, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsini də həmişə diqqət mərkəzində saxlayır. Son illər xeyli sayda hərbi şəhərcik yaradılıb, hərbi hissələrimizin 80 faizi yenilənib və ya əsaslı təmir edilib. Ötən ilin dekabrında paytaxtın Sabunçu rayonunda 400-dək hərbi qulluqçuya yeni mənzillər verilib. Bu işlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

Orduda xidmət edən zabit və əsgərlərin vətənpərvərliyinin vacib amil olduğunu deyən Fuad Ələsgərov yuxarı sinif şagirdlərinin hərbi hissələrə səfərlərinin, qəhrəman əsgər və zabitlərimizlə görüşlərinin, "Əsgərə məktub" və digər sosial tədbirlərin təşkilinin, görkəmli şəxsiyyətlərin, ictimai xadimlərin əsgərlərimizə tez-tez baş çəkmələrinin bu baxımdan önəmini qeyd edib.

Aprel döyüşlərinin qəhrəmanlarından biri, "Azərbaycan Bayrağı" ordenli **Tahir Misirxanov** işğal altındakı bütün torpaqlarımızın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmən tapdağından azad ediləcəyinə və böyük qələbə bayramının qeyd olunacağına əminliyini bildirib. Aprel döyüşləri ilə bağlı xatirələrini bölüşən T.Misirxanov deyib: "Mən xidmət etdiyim hərbi hissənin, birliyin gəncləri adından Prezidentimizi və Müdafiə Nazirliyinin rəhbərliyini, eləcə də bütün toplantı iştirakçılarını əmin edirəm ki, Aprel zəfərini təkrarlamağa və Qarabağa böyük qayıdışı təmin etməyə hər an hazırıq və buna qadirik. Hərbçi gənclər böyük qüvvədir və fəxr edirəm ki, mən də onların sıralarındayam".









Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirməsi, Azərbaycanın Milli Qəhrəmanı, şəhid mayor Rasim İbrahimovun yolunu davam etdirən oğlu, Hərbi Hava Qüvvələrinin Aviasiya manqasının texniki istismar hissəsinin rəisi kapitan **Nizami İbrahimov** atasının vətən uğrunda son gülləsinədək vuruşduğunu, yaralanmasına baxmayaraq, düşmənə təslim olmadığını, qumbaranı sinəsinə sıxaraq bir neçə düşmən zabitini məhv etdiyini və şəhidlik zirvəsinə ucaldığını bildirib. Atasına Azərbaycanın Milli Qəhrəmanı adının ölümündən iki il sonra ulu öndərimizin fərmanı ilə verildiyini xatırladan gənc kapitan onların ailəsinin dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunduğunu deyib.

Şəhid ailələrinə göstərilən qayğıya görə minnətdarlığını bildirən N.İbrahimov deyib: "Yenidən Prezident seçiləndən sonra cənab İlham Əliyevin ilk sərəncamı şəhid ailələri ilə bağlı oldu. Dövlət başçısı yanvarın 28-də şəhid ailələri ilə görüşdü. Şəhid vərəsələrinə birdəfəlik yardım kartları təqdim olundu, yeni sərəncam imzalandı. Şəhid ailələrinə verilən Prezident təqaüdünün artırılması haqqında növbəti sərəncam bizi bir daha sevindirdi".

Aprel döyüşləri zamanı ermənilərin təxribatlarının qarşısını alarkən düşmənin 12 hərbi texnikasını və xeyli canlı qüvvəsini məhv etdiyinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunan, tank əleyhinə divizionun komandiri mayor **Mirdamət Bağıyev** bildirib ki, nizami Azərbaycan Ordusunu yaratması ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında ən böyük xidmətlərindən biridir. Bu ordu dövlət başçısı İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində daha da güclənərək istənilən döyüş əmrini, hücum tapşırığını yerinə yetirməyə hər an hazır olan mütəşəkkil hərbi qüvvəyə çevrilib. Orduda xidmət illərinin İlham Əliyevin prezidentlik dövrünə təsadüf etdiyini vurğulayan zabit deyib: "Dəfələrlə Ali Baş Komandanımızla görüşmək şərəfinə nail olmuşam. Aprel döyüşlərinin ildönümündə Prezidentimizin qəbulunda olduğum günü ömrüm boyu unutmayacağam".

Ötən ilin mayında Günnüt zəfərinin qazanılmasında müstəsna xidmətləri olan Naxçıvanın qəhrəman müdafiəçilərindən kapitan **Əlqəm Gözəlov** ulu öndər Heydər Əliyevin qurucusu olduğu milli ordumuzun ilk təməl daşının Naxçıvanda qoyulduğunu vurğulayaraq deyib: "Azərbaycan Ordusunda ilk dəfə Naxçıvanda hərbi hissələrə döyüş bayraqları təqdim olundu. Həmin bayraqları Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev təqdim etdi. Naxçıvanda ilk diviziya, ilk Əlahiddə Ümumqoşun Ordu yaradıldı. Bizə ulu öndərimizdən miras qalmış azərbaycançılıq məfkurəsi ən kəsərli silahımızdır. Biz bu torpağın, Odlar diyarının övladlarıyıq, gəncləriyik. Bizim bir vətənimiz var. O da azad, müstəqil, yenilməz, gündən-günə çiçəklənən, güclü və qüdrətli ordusu ilə fəxr etməyə haqqı olan doğma Azərbaycandır".

İştirakçısı olduğu Günnüt əməliyyatı haqqında danışan gənc kapitan deyib: "Bu uğurlu əməliyyat düşmənlərimizi lərzəyə salıb və onlar çətin ki, özlərinə gələ bilsinlər. Mühüm strateji yüksəkliklərin qısa vaxt ərzində azad edilməsi, 11 min hektar ərazinin nəzarətə götürülməsi hərb tarixində görünməyən hadisədir. Bu möhtəşəm qələbənin qazanılmasında fərqlənən hərbi hissənin döyüş bayrağını Bakıya gətirərək Azadlıq meydanında nümayiş etdirdik".

Yunan-Roma güləşi üzrə Avropa və dünya çempionu, Mərkəzi Ordu İdman Klubunun taqım komandiri, leytenant **Həsən Əliyev** ulu öndər Heydər Əliyevin ölkəmizdə idmanın və bədən tərbiyəsinin inkişafına da daim böyük qayğı göstərdiyini vurğulayıb. O deyib ki, ordumuzun idmançıları ölkəmizin şanlı idman salnaməsinə parlaq səhifələr yazıb, olimpiadalarda, mötəbər idman yarışlarında Azərbaycan bayrağını dalğalandırıb, himnimizi səsləndiriblər. Müdafiə Nazirliyinin rəhbərliyi orduda bədən tərbiyəsi və idmanın inkişafına, kütləviliyinə ciddi diqqət yetirir. Bu sahədə Mərkəzi Ordu İdman Klubunun xidmətləri danılmazdır. Hərbçi-idmançılarımız Beynəlxalq Hərbi İdman Şurasının xətti ilə keçirilən beş ümumdünya hərbi idman oyununda 78 qızıl, 64 gümüş və 98 bürünc medal qazanıblar.

Hərbi Dəniz Qüvvələrində xidmət edən baş leytenant **Ariz Qəhrəmanov** bildirib ki, digər qoşun növləri kimi, Hərbi Dəniz Qüvvələrimiz də ümummilli liderimizin sayəsində yenidən formalaşıb və hazırda mütəşəkkil qüvvəyə çevrilib. Döyüş gəmilərinin və qüvvələrinin iştirakı ilə keçirilən son irimiqyaslı təlimlər bir daha göstərdi ki, hərbi dənizçilərimiz istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadirdirlər.

Ariz Qəhrəmanov deyib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Puta əsas baza məntəqəsinin və bazada xidmət edən, əksəriyyəti gənclərdən ibarət zabit, miçman və çavuşların sosial-məişət və mənzil şəraitinin yaxşılaşdırılması üçün tikilən yaşayış binalarının və digər hərbi obyektlərin açılışında şəxsən iştirakı hərbi dənizçilərdə böyük ruh yüksəkliyi yaradıb.

Qeyd edilib ki, 2015-ci ildən başlayaraq keçirilən Beynəlxalq Ordu Oyunlarının "Dəniz kuboku" müsabiqəsində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin birinci yeri tutması mühüm nailiyyətdir. Baş leytenant hərbi dənizçilərin qarşıya qoyulan vəzifələrin öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə, digər qoşun növləri ilə birlikdə hərb tariximizə parlaq səhifələr yazacaqlarına əminliyini bildirib.

Ötən il keçirilən möhtəşəm hərbi paradlarda öz məharətlərini göstərən təyyarəçi kapitan **Məzahir Səfərov** 2001-ci ilin avqustunda indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi məzunlarının ilk buraxılışında ulu öndərimizin xeyir-duasını məmnunluqla xatırladıb. Hazırda Azərbaycanın milli şahinlərinin əsl peşəkarlıq xüsusiyyətlərinə malik olduqlarını vurğulayan M.Səfərov deyib ki, pilotlarımız hərbi paradlarda peşəkarlıqlarını bir daha nümayiş etdirərək ulu öndərimizin arzularını gerçəkləşdiriblər. "Fəxr edirəm ki, mən də Azərbaycanın milli şahinlərindən biriyəm. Lələtəpə istiqamətində erməni işğalçılarına qarşı əks-hücum əməliyyatlarında qəhrəmanlıqlar göstərərək şəhidlik zirvəsinə ucalmış milli pilotlarımız Təbriz Musazadə, Urfan Vəlizadə və Əbu Bəkr İsmayılovun intiqamını almaq, işğal altındakı bütün torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyir və zəfər yürüşünə hazırıq", - deyə pilot bildirib.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı **Tapdıq Mansurov** xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı liseydə təhsil almaqdan, yeniyetmə vaxtlarından əsgər çəkməsi, uniforma geyinməkdən qürur duyduğunu qeyd edib. Hərbi liseyin yetirmələri arasında 20-dən çox general və admiralın, 10-dan çox Milli Qəhrəmanın olduğunu vurğulayan kursant deyib: "Biz Heydər Əliyevin arzuları, Prezident İlham Əliyevin ümidləri və ordumuzun gələcəyiyik. Mən Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almağımla qürur duyur, zabit olacağım günü səbirsizliklə gözləyirəm".

Müdafiə naziri, general-polkovnik **Zakir Həsənov** tədbirdə çıxış edərək Azərbaycan Gəncləri Günü münasibətilə hərbçi gəncləri təbrik edib. Ordumuzun döyüş qabiliyyətindən danışan müdafiə naziri bildirib ki, Azərbaycan Silahlı Qüvvələrinin qüdrətinin artırılmasının əsasında dövlətimizin və onun rəhbərliyinin yüksək diqqət və qayğısı dayanır. Hərbi büdcəmiz ildən-ilə artır, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Müdafiə naziri deyib ki, son illərdə ölkəmizin dinamik iqtisadi inkişafı və ordumuzun güclənməsi dövlət başçısının uğurlu siyasətinin nəticəsidir. Prezident, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib.

Sonra Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısının iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunub. Müraciətdə deyilir: "Əmin ola bilərsiniz ki, biz həqiqətən vətən uğrunda, torpaq uğrunda canımızdan keçməyə, işğal altında olan torpaqlarımızı azad etməyə, ərazi bütövlüyümüzü təmin etməyə hər an hazırıq. Hərbi paradlarda cüzi hissəsini nümayiş etdirdiyimiz ən müasir hərbi texnikalarımız, zenit-raket komplekslərimiz, artilleriya qurğularımız, aviasiya vasitələrimiz və ilk növbədə, Azərbaycan əsgərinin döyüş ruhu, mənəvi-psixoloji hazırlığı, peşəkarlığı, yüksək vətənpərvərlik hissi bunu deməyə əsas verir. Biz Sizin arzularınızı gerçəkləşdirəcək, digər əzəli torpaqlarımızı işğaldan azad edərək orada bayrağımızı dalğalandıracağıq".

Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı Ali Baş Komandana ünvanlanan "Zəfər marşı"nın ifası ilə başa çatıb.

## Akademik Cəmil Əliyevə BMT-nin "Elm və sülh elçisi" fəxri mükafatı təqdim edilib

Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyevə Milli Onkologiya Mərkəzinin Azərbaycanda göstərdiyi çoxillik səmərəli fəaliyyətinə və onkologiya sahəsində bütün dünyada qəbul olunmuş yüksək elmi-praktik nailiyyətlərinə görə Birləşmiş Millətlər Təşkilatının "Elm və sülh elçisi" fəxri mükafatı təqdim edilib.

AZƏRTAC xəbər verir ki, mükafat Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin (MOM) təşkilatçılığı ilə fevralın 2-də Bakıda keçirilən Ümumdünya Xərçəng Gününə həsr olunmuş III Azərbaycan onkologiya və nüvə təbabəti simpoziumunda təqdim olunub.




Fəxri mükafatı akademik Cəmil Əliyevə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının məsul işçisi, BMT Beynəlxalq Mükafatlar Şurasının Cenevrə ofisinin rəhbəri Mehmet Şükrü Güzel təqdim edib. O, Milli Onkologiya Mərkəzinə və akademik C.Əliyevə yeni nailiyyətlər arzulayıb.

## *Akademik Cəmil ƏLİYEV:* "Həkim üçün ən yaxşı mükafat xəstələrin tam şəfa tapmasıdır"



Bu gün Bakıda artıq ənənəyə çevrilmiş növbəti Azərbaycan onkologiya və nüvə təbabəti simpoziumu keçirilir. Azərbaycan Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin (MOM) təşkil etdiyi budəfəki tədbir hər il fevralın 4-də keçirilən Dünya Xərçənglə Mübarizə Gününə həsr olunub. Müasir ümumi onkologiyanın və nüvə təbabətinin aktual problemlərinin, onkologiya qarşısında duran vəzifələrin, həmçinin onların potensial həlli yollarının müzakirə edildiyi nüfuzlu beynəlxalq səhiyyə forumunda Azərbaycan onkoloqları ilə yanaşı, Avstriya, İsveçrə və Türkiyənin aparıcı tibb mərkəzlərinin yüksəkixtisaslı mütəxəssisləri, həmçinin elmi dairələrin nümayəndələri iştirak edirlər.

Zənnimcə, vətəndaşlarımızın sağlam həyat tərzinin təminatı üçün həkimlərin bir-biri ilə sıx əməkdaşlığı və onkoloji xəstəliklərin müalicəsində məlumat mübadiləsinin aparılması çox böyük əhəmiyyət kəsb edir. Buna görə də bu cür tədbirlərin keçirilməsi maarifçilik nöqteyi-nəzərindən, həmçinin həkimlərimizin daha dərin biliklər əldə etməsi üçün çox vacibdir.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə müsahibəsində simpoziumun sədri, Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev bildirib.

Akademik C.Əliyev onkologiya sahəsində yüksək elmi və praktik nailiyyətlərə görə Birləşmiş Millətlər Təşkilatının "Elm və sülh elçisi" fəxri mükafatına layiq görülməsini şərh edərək deyib: "Bu, təkcə mənim yox, Milli Onkologiya Mərkəzinin bütün kollektivinin xidmətidir. Hər bir müəssisənin uğuru onun kollektivinin iş ahəngindən asılıdır. Azərbaycanda onkologiya xidməti böyük və uğurlu inkişaf yolu keçib. Ölkəmizdə xərçəng xəstəliklərinin müalicəsində ciddi tədbirlər həyata keçirilir və bu iş planlı şəkildə davam edir. MOM mövcud olduğu illər ərzində özünün təşəkkül və inkişafında çox mərhələlərdən keçib. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində hazırda mərkəz ən müasir tibbi texnika ilə təchiz edilib və respublika əhalisinə ixtisaslaşdırılmış onkoloji yardımı həyata keçirən elmi-metodiki və profilaktik işlərin koordinasiyası ilə məşğul olan baş strukturdur. Burada aparılan müalicədən başlıca məqsəd xəstələrin ömrünün uzadılması, onların mümkün qədər tam sağalmasıdır. Həkim üçün ən yaxşı mükafat isə xəstələrin tam şəfa tapmasıdır".

## Onkologiya və nüvə təbabəti simpoziumu

Bu gün Bakıda Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin (MOM) təşkilatçılığı ilə Ümumdünya Xərçəng Gününə həsr olunmuş III Azərbaycan Onkologiya və nüvə təbabəti simpoziumu keçirilib.

AZƏRTAC xəbər verir ki, müasir ümumi onkologiyanın və nüvə təbabəti problemlərinin müzakirə olunduğu bu mötəbər beynəlxalq səhiyyə forumunda Azərbaycan onkoloqları ilə yanaşı, Avstriya, İsveçrə və Türkiyənin ən nüfuzlu tibbi mərkəzlərinin aparıcı mütəxəssisləri və elmi dairələrin nümayəndələri də iştirak ediblər. III Azərbaycan Onkologiya və nüvə təbabəti simpoziumunun əsas müzakirə mövzularından biri də nüvə təbabətinin müasir vəziyyətinə və perspektivlərinə, eləcə də xərçəngin profilaktikası və müalicəsində tətbiq edilən ən son metodlara dair məruzələrin dinlənilməsi və təcrübə mübadiləsi aparılması olub.

Simpoziumu giriş sözü ilə Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev açıb. Xərçəng xəstəliklərinin erkən diaqnostikası və müalicəsi üzrə Azərbaycanın aparıcı tibb müəssisəsi olan Milli Onkologiya Mərkəzinin son illərdə əldə etdiyi yüksək nailiyyətlərdən danışan C.Əliyev müasir dünyada onkoloji xəstəliklərin dinamikasının artması faktını təəssüflə vurğulayıb. Akademik bu sahədə müvafiq beynəlxalq strukturların ümumi bəlaya qarşı mübarizənin gücləndirilməsinin və birgə səylərin koordinasiyasının zəruriliyini xüsusi vurğulayıb.

Akademik C.Əliyev qeyd edib ki, əsrin bəlasına qarşı mübarizə işinə Azərbaycan onkoloqları, Milli Onkologiya Mərkəzinin elmi və tibbi personalı da layiqli töhfə verir. Bildirilib ki, tibbin ən ağır, ən məsuliyyətli sahələrindən biri olan onkologiya problemləri daim dövlətimizin diqqət mərkəzindədir. Son illərdə Milli Onkologiya Mərkəzində xərçəng xəstəliklərinin diaqnostikası və müalicəsi üçün hər cür şərait yaradıldığını bildirən akademik Cəmil Əliyev bu nəcib işdə həmişə əhalinin sağlamlığını və sosial rifahını düşünən Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müstəsna xidmətlərini xüsusi qeyd edib. O, həmçinin Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın himayəsi ilə Milli Onkologiya Mərkəzində Uşaq Klinikasının inşa edilib istifadəyə verilməsini onkoloji xəstəliklərdən əziyyət çəkən uşaqlara diqqət və qayğının bariz nümunəsi olduğunu bildirib.

Simpoziumda rəhbərlik etdiyi Milli Onkologiya Mərkəzinin Azərbaycanda göstərdiyi çoxillik səmərəli fəaliyyətinə və onkologiya sahəsində bütün dünyada qəbul olunmuş yüksək elmi-praktik nailiyyətlərinə görə akademik Cəmil Əliyevə Birləşmiş Millətlər Təşkilatının "Elm və sülh elçisi" fəxri mükafatı təqdim edilib. Fəxri mükafatı akademik C.Əliyevə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının məsul işçisi, BMT Beynəlxalq Mükafatlar Şurasının Cenevrə ofisinin rəhbəri Mehmet Şükrü Güzel təqdim edib, Milli Onkologiya Mərkəzinə və akademik C.Əliyevə yeni nailiyyətlər arzulayıb.

Tədbirdə çıxış edən Milli Onkologiya Mərkəzi baş direktorunun birinci müavini, tibb elmləri doktoru, professor Əziz Əliyev son illər Azərbaycanda bütün sahələrdə, o cümlədən tibb sahəsində mühüm uğurlar əldə edildiyini diqqətə çatdırıb. Professor öz çıxışında xatırladıb ki, son illər Milli Onkologiya Mərkəzi onkoloji xəstələrin müalicəsi üçün zəruri yeni texnologiyaların istehsalçısı olan dünyanın aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir. MOM ilə Amerikanın bədxassəli şişlərin radioterapiyası üçün müasir texnologiyaları layihələşdirən və istehsal edən "Varian Medical Systems" şirkəti arasında 2014-cü ilin oktyabrında imzalanmış əməkdaşlıq haqqında saziş buna sübutdur. Bununla da, Milli Onkologiya Mərkəzi rəsmi referens-mərkəz statusunu alıb. Sənəd tərəfdaşlar arasında əməkdaşlığın genişləndirilməsinə, müasir texnologiyaların Azərbaycana daha qısa vaxt ərzində çatdırılmasına, xarici mütəxəssislərlə geniş fikir mübadiləsi aparılmasına şərait yaradır. Bununla yanaşı, imzalanmış saziş Milli Onkologiya Mərkəzində onkoloji xəstələrə göstərilən yüksək səviyyəli xidmətin dünyanın aparıcı klinikaları tərəfindən tanınmasını təsdiq edir.

Tədbirdə qeyd olundu ki, 2008-ci ildə ölkəmizdə radionuklid diaqnostika, dörd il sonra radionuklid terapiya şöbələri, 2014-cü ildə Nüvə Təbabəti İctimai Birliyi yaradılıb. 2015-ci ildə nüvə təbabəti ixtisası təsdiq edilib və 2016-cı ildə Nüvə Təbabəti Mərkəzi fəaliyyətə başlayıb. Nəinki Azərbaycanda, hətta regionda ilk və yeganə tibb müəssisəsi olan Nüvə Təbabəti Mərkəzi xərçəng xəstəliklərinin erkən aşkar edilməsi baxımından böyük əhəmiyyət daşıyır. Mərkəzdə pozitron emissiya tomoqrafiya/kompüter tomoqrafiya (PET/KT) cihazı quraşdırılıb. Bu, orqanizmdə hüceyrə mübadiləsini molekulyar səviyyədə göstərməyə imkan verən müasir tibbi diaqnostik görüntüləmə üsuludur. Nüvə Təbabəti Mərkəzinin fəaliyyətinin əsas prinsipi yüksək səviyyədə xidmət təqdim etməkdir. Mərkəzdə işləyən həkimlər, əczaçılar, fiziklər, mühəndislər, kimyaçılar, hətta kiçik və orta heyət xaricdə təhsil alıb və zəngin praktiki biliklərə malikdirlər. Onların sırasında müvafiq sahədə böyük təcrübəsi olan xarici mütəxəssislər də var.

Diqqətə çatdırılıb ki, 2016-cı ildən Avropa Nüvə Təbabəti Assosiasiyası tərəfindən akkreditasiya olunaraq dünyanın 29 ölkəsinin ən mükəmməl mərkəzləri sırasına daxil edilib. Bunun nəticəsi olaraq Milli Onkologiya Mərkəzinə dünyanın müxtəlif ölkələrindən müraciətlərin sayı xeyli artıb. Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstan, Əfqanıstan, Liviya, Suriyanın, eləcə də bir sıra Avropa və Asiya ölkələrindən olan pasiyentlər Nüvə Təbabəti Mərkəzində uğurla müayinədən keçiblər. 2017-ci ildən etibarən mərkəzdə hədəfə yönəlmiş radionuklid müalicələrə başlanılıb. Bir çox qonşu ölkədən xəstələr bu xüsusi təyinatlı Litesium-177 və Actinium-225 müalicəsini almaq üçün ölkəmizə müraciət ediblər.

Simpoziumun sessiyalarında Milli Onkologiya Mərkəzi baş direktorunun birinci müavini, tibb elmləri doktoru, professor Əziz Əliyev, Beynəlxalq Atom Enerjisi Agentliyinin baş inspektoru, professor Françesko Giammarile, MOM-un nüvə təbabəti şöbəsinin müdiri Fuad Novruzov, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının məsul işçisi, BMT Beynəlxalq Mükafatlar Şurasının İsveçrə ofisinin rəhbəri Mehmet Şükrü Güzel, Bern Universitetinin nüvə təbabəti bölməsinin rəhbəri professor Aksel Rominger, Ankara Universitetinin nüvə təbabəti bölməsinin professoru Özləm Küçük və başqaları müxtəlif mövzularda məruzələrlə çıxış ediblər.

# İlham Əliyev gəncliyin ən böyük dostu və himayədarıdır

## Öz dövləti və lideri ətrafında sıx birləşən müasir gənclər Azərbaycan Prezidentinin ən böyük dəstəkçisi və onun siyasətinin davamçılarıdırlar

Əvvəli 1-ci səh.

Mənim işimə heç bir irad yox idi. Məni işdən çıxaranda rəhbərlik belə də demişdi ki, Sizə bizim iradımız yoxdur. Ancaq Heydər Əliyev artıq Sovet İttifaqında düşmən kimi tanınır və düşmənin oğlu belə institutda dərs deyə bilməz. Mənim üçün işsizlik dövrü başladı. Bir neçə ay işsiz qaldım. Müxtəlif yerlərdə iş axtarırdım, müraciət edirdim. Amma biləndə ki, Heydər Əliyevin oğluyam, əlbəttə ki, məni heç kim işə götürmürdü. O vaxt Sovet İttifaqının tarixində iqtisadi sahədə müəyyən liberallıq da müşahidə olundu, özəl biznesə icazə verildi".

Məcbur qalıb özəl bizneslə məşğul olan İlham Əliyev qısa müddət ərzində çox uğurlu fəaliyyət göstərərək həyatını yenidən qurur. Amma işi bununla bitmir. Gənc yaşlarında Moskvada yaranmaqda olan Azərbaycan icmalarının fəaliyyətinə dəstək verməyə başlayır: "Yadımdadır ki, o vaxt Moskvada Azərbaycan Vətəndaş Assambleyası yaradılmışdı. O assambleyanın qurucularından biri də mənəm. Bir biznesmen kimi assambleyanın fəaliyyətinə ən çox maliyyə dəstəyi verən də mən olmuşam. O vaxt Moskvada Azərbaycan məktəbi təsis edilmişdi. Moskvada yaşayan azərbaycanlılardan birincisi, o məktəbə maliyyə dəstəyi verən də mən olmuşam".

### Gənclərin yeni baxışları cəmiyyət üçün çox lazımdır

Hazırda Azərbaycan gəncliyi cəmiyyətin inkişafında fəal sosial təbəqə kimi öz sözünü deyir. Elmi-texniki tərəqqinin sürətli inkişafı dövründə elə bir sahə tapılmaz ki, orada gəncliyin izi görünməsin. Gənclər bu gün demokratikləşmə prosesində, mədəniyyət, incəsənət, elm və idman sahəsində böyük inamla irəliləyir, zəngin mədəni irsimizin qorunub saxlanması və inkişaf etdirilməsi yolunda mühüm addımlar atırlar. Dövlət başçısının söylədiyi kimi gənclərin həm potensialı, həm fəallığı, həm də məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır.

Bu bir həqiqətdir ki, sağlam gəncliyin formalaşması üçün ölkə rəhbərliyi tərəfindən ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Gənclər siyasətinin hüquqi bazası əsasında bu sahədə əsas vəzifələr və istiqamətlər müəyyənləşdirilib.

Elə dövlət başçısı da bu məsələlərə bir daha nəzər salaraq gənclərə öz tövsiyələrini verdi. Azərbaycanın uğurla inkişaf etdiyini söyləyən Prezident vurğuladı ki, əldə edilmiş uğurlarla kifayətlənməməli, daim irəliyə baxmalıyıq və ilk növbədə, bu gün həll edilməyən məsələlər öz həllini tapmalı, nöqsanlar, problemlər aradan qaldırılmalıdır. Əlbəttə ki, gənclər bu sahədə dövlətin ən birinci yardımçıları ola bilərlər və olmalıdırlar. Bu səbəbdən də ictimai nəzarətin gücləndirilməsi çox önəmli məsələdir. Gəncləri bu məsələyə diqqət yetirməyə çağıran Prezident dedi ki, ictimai nəzarət olan yerdə işlər daha yaxşı gedir.

### Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir

Azərbaycanın son illərdə bütün sahələrdə qazandığı uğurlardan söz açan dövlət başçısı yürütdüyü tam müstəqil siyasətin bundan sonra da davam edəcəyini və ölkəmizin daha da qüdrətlənəcəyini söylədi. Amma bu işdə gənclərin də öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmələri vacibdir: "Sizin üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm".

Bugünkü gəncliyə inandığını, güvəndiyini vurğulayan cənab İlham Əliyev Azərbaycan gənclərinin ən böyük hamisi kimi onlara həm çağırış etdi, həm də qarşılarında duran vəzifələri dəqiq müəyyənləşdirdi: milli ruhda tərbiyə almalı, vətənpərvərlik ovqatında olmalı, təhsilə çox böyük fikir verməli, peşəkar və fəal olmalı, xalqının maraqları hər şeydən üstün tutulmalı və dövlət maraqları, milli mənafeyi, müstəqilliyi layiqincə qorumalı...

### Gənclərin üzərinə çox böyük vəzifə düşür

Prezident hər bir gənc üçün ən vacib olan iki məsələni xüsusi olaraq vurğuladı: "Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir.. Ona görə bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycanın dövlət müstəqilliyi hər şeydən üstündür, Azərbaycan xalqının maraqları hər şeydən üstün olmalıdır. Bir daha demək istəyirəm ki, müstəqilliyi qorumaq üçün milli ruh, bilik, savad, vətənpərvərlik və milli təfəkkür olmalıdır".

Mərasimdə çıxış edən Azərbaycan gəncləri də bəyan etdilər ki, ölkənin gələcəyi olaraq üzərlərinə çox böyük vəzifələr düşdüyünü çox gözəl anlayırlar. Bunun üçün də ilk növbədə vətənpərvər olmalı, istənilən sahədə çalışarkən vətəninə, xalqına vicdanla xidmət etməlidirlər.

Gənclər bəyan etdilər ki, etibarlı gələcəyin təminatçıları kimi hər zaman İlham Əliyev siyasətinin dəstəkçisi və bu siyasətin davamçılarıdırlar. Gənclər əmindirlər ki, Azərbaycan məhz cənab İlham Əliyevin rəhbərliyi ilə xoşbəxt, parlaq gələcəyə qovuşacaq və bu yolda bir vətəndaş olaraq onlar həmişə öz liderlərinin yanında olacaqlar.

Çünki İlham Əliyevin siyasəti ölkəmizin təbii sərvətlərinin insan kapitalına çevrilməsinə, dövlətin dayanıqlı inkişafına yönəlib. Gənclərin ən böyük xoşbəxtliyi, ən dəyərli sərvəti məhz Azərbaycanın müstəqilliyi, sabitliyi və tərəqqisidir.

### Azərbaycan gəncliyi öz dövləti və lideri ətrafında sıx birləşib

Göründüyü kimi, Azərbaycan dövləti ölkə gənclərinə hərtərəfli qayğı və diqqət göstərdiyi kimi, gənclərimiz də dövlətin etimadını hər addımda doğrultmaq üçün əllərindən gələni əsirgəmirlər. Hər gün, hər addımda şahidi oluruq ki, Azərbaycan gəncliyi öz dövləti və lideri ətrafında sıx birləşib.

Gənclər Gününə həsr olunmuş mərasimdə də ölkə gəncləri bir daha Prezidentin etimadını və bundan irəli gələn məsuliyyəti başa düşərək öz potensiallarını müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına sərf edəcəklərini qətiyyətlə vurğuladılar.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

**"Əsrin müqaviləsi"ndən start götürən Azərbaycan neft-qaz sənayesi son 15 ildə daha böyük yüksəlişə nail olub. 2005-ci ildə ilk yükünü qəbul edən Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə tam bir sistem kimi işə düşüb. Ötən illər ərzində Azərbaycan özünü həm də qaz ixrac edən ölkə kimi təsdiqləyib. Artıq 12 ildən çoxdur Bakı-Tbilisi-Ərzurum kəməri Xəzərin Azərbaycan sektorunda hasil olunan qazı Gürcüstana və Türkiyəyə çatdırır. Tikintisi sona yaxınlaşan "Cənub qaz dəhlizi" isə yaxın gələcəkdə mavi yanacağı neçə-neçə Avropa ölkəsinə nəql edəcək.**



# Neft Azərbaycan üçün "qara qızıl" olaraq qalır

## Prezident İlham Əliyev dünən də, bu gün də belə olduğunu, sabah da belə olacağını bir daha bəyan etdi

Təsadüfi deyil ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda neft-qaz sektorunda qazanılmış nailiyyətlərdən də ətraflı bəhs edilib. O cümlədən keçən il ölkədə 38,8 milyon ton neft və 30 milyard kubmetr qaz hasil olunduğu vurğulanıb.

Prezident İlham Əliyev konfransdakı nitqində bu barədə belə deyib: "Əlbəttə ki, bizim iqtisadiyyatımızın əsas sahəsi neft-qaz sektorudur. Bu, bu gün belədir, əvvəl də belə olub və bundan sonra da belə olacaq. Biz sadəcə olaraq çalışırıq ki, qeyri-neft sektorunu sürətlə inkişaf etdirək, buna nail oluruq. Ancaq hansı ictimai-siyasi formasiyada yaşamasına baxmayaraq, Azərbaycanda ilk neft tapılan dövrdən bugünə qədər bu, əsas iqtisadi potensial olub".

2017-ci il sentyabrın 14-də "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqları üzrə dəyişdirilmiş və yenidən işlənmiş Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) imzalanması bu potensialın böyük olduğunu bir daha sübut etdi. 2050-ci ilədək AÇG yataqlar blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur. Beynəlxalq tərəfdaşlar Azərbaycan Respublikası Dövlət Neft Fonduna (ARDNF) 3,6 milyard dollar bonus ödəyəcəklər. Keçən il yanvarın 29-da ARDNF-yə yeni sazişə uyğun olaraq 450 milyon ABŞ dolları həcmində ilk bonus ödənişi həyata keçirilib. Hesablama Palatasının hazırladığı "ARDNF-nin 2019-cu il büdcə layihəsi ilə bağlı Rəy"də bildirilir ki, bu il AÇG-dən neft hasilatının 26,56 milyon ton olacağı planlaşdırılıb.

Bundan əlavə, Azərbaycan neftçiləri qurudakı və dənizdəki köhnə yataqlardan neft və qaz çıxarırlar. Hasilatın sabit saxlanılması üçün çoxsaylı tədbirlər həyata keçirilir. Keçən il dekabrın 24-də "Bulla-dəniz" yatağında istismara verilmiş yeni stasionar özül buna aydın misaldır. Sözügedən konfransda da ölkədə həyata keçirilən meqalayihələrlə paralel olaraq məhz daxili istehsalın, yəni SOCAR tərəfindən neft və qaz hasilatının sabit saxlanılmasının vacibliyi qeyd edilib.

Tədbirdə eləcə də təbii resurslardan səmərəli istifadə olunduğu vurğulanıb. Dövlət başçısının dediyi kimi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin işə düşməsi çox böyük tarixi hadisədir: "Əgər bu layihələr icra edilməsə idi, biz bu qədər vəsait əldə edə bilməzdik. Çünki bizim ixrac imkanlarımız məhduddur, açıq dənizlərə çıxışımız yoxdur və bizə mütləq neft-qaz kəmərləri lazımdır. Bu kəmərlərin tikintisi həm maliyyə, həm siyasi, həm beynəlxalq əməkdaşlıq baxımından çox mürəkkəb və çətin bir layihələr idi. Biz bunu da bacardıq. Bu gün bu iki kəmər vasitəsilə resurslarımız dünya bazarlarına göndərilir".

İndi Azərbaycan Avropada ən böyük infrastruktur layihələrindən biri olan "Cənub qaz dəhlizi"nin həyata keçirilməsinə liderlik edir. Hazırda dəhlizin tikintisi sona yaxınlaşır. Belə ki, dörd seqmentdən ibarət olan layihənin üç hissəsi istifadəyə verilib. Keçən il "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasilata başlanması, eləcə də qazı Azərbaycanın və Gürcüstanın ərazisi ilə nəql edən Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsinin yekunlaşması ilə birinci iki seqment işə düşdü. Bununla bağlı mayın 29-da Bakı yaxınlığındakı Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimi keçirildi. İyunun 14-də isə Türkiyədə - Əskişəhərdə TANAP-ın (Transanadolu Qaz Boru Kəməri) açılışı oldu. TANAP dəhlizin ən böyük hissəsi və birləşdirici həlqəsi olduğu üçün bu kəmərin istifadəyə verilməsi də layihənin salnaməsində mühüm yer tutur.

Hazırda dəhlizin sonuncu hissəsi olan TAP-ın (Transadriatik Qaz Boru Kəməri) çəkilişi uğurla davam edir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev 2020-ci ildə istifadəyə verilməsi nəzərdə tutulan "Cənub qaz dəhlizi" layihəsinin icrasının Azərbaycana əlavə böyük gəlir gətirəcəyinə əmin olduğunu bildirib.

Təqdirəlayiq haldır ki, Azərbaycan dövləti neftdən və qazdan əldə olunan gəlirləri qeyri-neft sektorunun şaxələndirilməsinə, insan kapitalının inkişafına yönəldir. Bu gəlirlər eləcə də böyük nəqliyyat layihələrinin gerçəkləşməsinə imkan yaradıb. Nəticədə Azərbaycan təkcə regionun deyil, bütün Avrasiya məkanının nəqliyyat mərkəzinə çevrilib. Dövlət başçısı: "Əlbəttə ki, neft sənayesində də işlər daim diqqət mərkəzindədir" deyib və bununla əslində, sözügedən bütün sahələrdə görülən işlərin yenə də gündəmdə qaldığını, davamlı olduğunu bəyan edib.

*Flora SADIQLI, "Azərbaycan"*

# İstedadlı və yaradıcı gənclər mükafatlandırılıblar

## Mərasimdə Şamaxı şəhəri 2019-cu il üçün "Gənclər Paytaxtı" elan olunub

Fevralın 2-də Azərbaycan Gəncləri Günü münasibətilə təntənəli mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə 2018-ci ildə yüksək fəallığı ilə seçilən gənclər və gənclər təşkilatları mükafatlandırılıb.

Əvvəlcə 2018-ci ildə gənclər sahəsində həyata keçirilən tədbirləri əks etdirən videoçarx yayımlanıb.

Mərasimdə Azərbaycanda dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi nəticəsində əldə olunan uğurlar, bu sahədə reallaşdırılan proqram, strategiya və layihələr, gənclərimiz üçün yaradılan şərait barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, 1997-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə 2 fevral - Azərbaycan Gəncləri Günü elan edilib. Həmin tarixdən başlayaraq, Azərbaycan Gəncləri Günü respublikamızda geniş qeyd olunur. Gənclər və İdman Nazirliyi tərəfindən hər il Azərbaycan Gəncləri Günü münasibətilə müxtəlif tədbirlər keçirilir. İstedadlı və yaradıcı gənclərin mükafatlandırılması da məhz belə tədbirlərdən biridir.

Tədbirdə 2018-ci ildə memarlıq, təsviri sənət, musiqi, teatr, ədəbiyyat, ictimai fəaliyyət, elm, təhsil sahələrində fərqlənən gənclər təltif olunublar.

Bundan başqa, dövlət gənclər siyasətinin həyata keçirilməsində uğurlu fəaliyyəti ilə seçilən bir sıra gənclər təşkilatları da mükafatlara layiq görülüb.

Mükafatlandırma mərasimində Şamaxı şəhərinin 2019-cu il üçün Azərbaycanın "Gənclər paytaxtı" seçildiyi elan edilib. Bildirilib ki, Şamaxı "www.genclerpaytaxti.az" saytında keçirilmiş onlayn səsvermənin qalibi olub.

"Gənclər paytaxtı"nın rəmzi açarı Şamaxı Şəhər İcra Hakimiyyətinin nümayəndəsinə təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib.

# IV Dövlət Proqramı islahatların davamı olacaq

Əvvəli 1-ci səh.

Bütünlükdə əlavə 1500 meqavat elektrik enerjisinin istehsalı artan daxili tələbatı ödəyəcək, ixrac isə əlavə valyuta gətirəcək. Bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində işlər gedəcək. Su-elektrik stansiyalarının, günəş və külək stansiyalarının tikintisinə marağın artdığını bildirən Prezident dedi: "İndi bu sahəyə xarici investorlarda maraq var. Dünya İqtisadi Forumu çərçivəsində keçirdiyim görüşlər bir daha onu göstərir ki, böyük şirkətlər bu sahəyə investisiya qoymağa hazırdırlar, bu barədə düşünürlər".

Prezident İlham Əliyev konfransdakı yekun nitqində görülən işlərdən məmnun qaldığını bildirsə də, daha çox analitik-tənqidi mövqe nümayiş etdirdi, ölkə iqtisadiyyatının potensial imkanlarını araşdırdı, islahatların perspektivlərinə toxunaraq IV Dövlət Proqramının qarşısında duran vəzifələrin icra mexanizmlərini açıqladı.

Qeyd olundu ki, içməli su layihələri, həmçinin meliorativ tədbirlər davam etdiriləcək. Bu il 80 min hektarda meliorasiya işləri aparılacaq. Kiçik su anbarlarının tikintisi, yeni suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi də gündəlikdədir.

Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən, avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdə olsa da, 15 ildə 15 min kilometr avtomobil yolu çəkilsə də, bu proses davam etdiriləcək, qarşıdakı illərdə yüzlərlə kənd yolu abadlaşdırılacaq.

Ölkədə 3272 məktəb tikilib təmir edilsə də, sosial infrastrukturun yaradılmasında fasilələr olmayacaq. Təmirə ehtiyacı olan məktəblər təmir ediləcək, xəstəxanaların, Olimpiya komplekslərinin tikintisi davam etdiriləcək. Məcburi köçkünlərin problemləri yenə diqqət mərkəzində qalacaq, ən azı 5000 ailə üçün evlər tikiləcək. Bu il əlavə 800 şəhid və Qarabağ əlili ailəsinə mənzil veriləcək. IV Dövlət Proqramının məqsədi bütün şəhid və Qarabağ müharibəsi əlilləri ailələrinin mənzillə təmin olunmasıdır.

### Vətəndaşların təklifləri nəzərə alınmışdır

Konfransda o da diqqətə çatdırıldı ki, regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramı əsasən yerlərdən gələn xahişlər nəticəsində formalaşmış, vətəndaşların təklifləri nəzərə alınmışdır. Sahibkarlara dövlət tərəfindən verilən böyük dəstəyin arası kəsilməyəcək, kreditlərin və subsidiyaların, texnika, gübrə və yanacağın güzəştli şərtlərlə verilməsinin ahəngi pozulmayacaq, ailə və kiçik biznesin inkişafına təkan verən yeniliklər tətbiq ediləcək.

Növbəti proqramda kənd təsərrüfatı və sənaye istehsalına, infrastruktur layihələrinə xüsusi diqqət yetiriləcək. Yeni idarəetmə mexanizmləri işə salınmış, müxtəlif təşəbbüslər irəli sürülmüşdür. İnvestisiya təşviqi proqramı üzrə 332 layihənin icrasına qoyulacaq sərmayə 2,8 milyard manatdır. Sənaye potensialının inkişafı üçün, əlbəttə, sənaye zonalarının, sənaye parklarının çox böyük rolu var. Azərbaycan indi müasir sənaye mərkəzinə çevrilmişdir.

Ölkənin neft sənayesində də meqalayihələr icra edilmişdir. 2020-ci ildə istifadəyə verilməsi nəzərdə tutulan "Cənub qaz dəhlizi" layihəsinin icrası da əlavə böyük gəlir gətirəcək.

Qeyri-neft sektorunun dövlət başçısının şəxsi nəzarətində olması yaxşı nəticələr əldə etməyə imkan versə də, qarşıdakı vəzifələr daha böyük intellektual və maddi resursların səfərbərliyə alınmasını tələb edir. Sumqayıt Kimya Sənaye Parkı, Sumqayıt Texnologiya Parkı, Mingəçevir Yüngül Sənaye Parkı, Gəncə şəhərində sənaye müəssisələrinin, Neftçala, Hacıqabul, Masallı, Sabirabad sənaye məhəllələrinin yaradılması köklü islahatların getdiyini büruzə versə də, gələcəkdə digər şəhərlərdə də sənaye zonalarının yaradılmasını zəruri edir.

Xalçaçılıq kimi qədim sənət növü Azərbaycan brendinin möcüzəvi qanadıdır. 20 xalça fabriki fəaliyyətdədir, onların da sayının 31-ə çatdırılması nəzərdə tutulur. Bu il Sumqayıt şəhərində açılması gözlənilən əyirici boyaq fabriki xalça istehsalında xarici xammaldan asılılığı aradan götürməyə imkan verəcək.

Ölkədə iplik fabrikləri olsa da, həm iplik, həm də hazır tekstil fabriklərinin tikilməsi IV Dövlət Proqramında nəzərdə tutulur. Tədarük edilən pambığın təxminən 50 faizinin artıq Azərbaycanda emal olunması əlavə dəyər yaratmağa imkan verir. Lakin pambıq istehsalının ildən-ilə sürətlə artmasını nəzərə alsaq görəcəyik ki, iplik fabriklərinin tikilməsi sahibkarlar üçün maraqlı, eyni zamanda gəlirli sahədir. Bu sırada ipəkçiliyin inkişafı da perspektivlidir. Artıq Qax rayonunda Damazlıq Baramaçılıq Mərkəzinin yaradılması ona imkan verəcək ki, idxaldan asılılıq azalsın, tingdən hazır ipək parçasına qədər mükəmməl istehsalat zənciri yaransın.

Aqrar sektorda yeni meyvə bağları salındıqca, məhsuldarlıq sürətlə artdıqca yeni meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması gündəmə gəlir. Prezident İlham Əliyev belə hesab edir ki, ümumiyyətlə, kənd təsərrüfatında islahatlar dərinləşdirilməlidir: "Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da mütləq ciddi iş aparmalıyıq, bu, prioritet məsələdir. Məhsuldarlığın artırılması istiqamətində işlər görülür. Hesab edirəm ki, bu, yaxın gələcəkdə özünü göstərəcək. Biz kənd təsərrüfatı məhsullarının ixracını artırmalıyıq. Düzdür, son 15 il ərzində kənd təsərrüfatı məhsullarının ixracı təxminən 6 dəfə artıb. Ancaq potensial da böyükdür və biz yeni bazarlara çıxmalıyıq".

### IV proqramın icrasına 17 milyard manatdan çox vəsait nəzərdə tutulub

Bu potensiallar qeyri-neft sektorunun bir çox sahələrini əhatə edir. Əgər 2016-cı ildə 40 min hektar fındıq bağlarımız vardısa, indi artıq bu rəqəm 75 min hektara çatıb, bu il 9 min hektar əlavə əkiləcək. Yeni fındıq və zeytun bağları salındıqca ixracın həcmini tədricən iki dəfə artırmaq mümkün olacaq. Son vaxtlar badam və qoz bağlarının salınmasının geniş vüsət alması badam və qoz emalı fabriklərinin tikintisini aktuallaşdırır.

2015-ci ildə cəmi 35 min ton, keçən il isə 233 min ton pambıq istehsal edilmişdir. Təxminən 7 dəfəyə yaxın artım əldə olunmuşdur. Lakin yalnız hektarın məhsuldarlığını artırmaqla yenə iki dəfə artıq məhsul əldə etmək mümkündür. Baramaçılıqda vəziyyət daha fərqlidir. 2015-ci ildə cəmi bir rayonda 230 kiloqram barama tədarük edilmişdisə, keçən il artıq 38 rayonda 513 ton barama tədarük edildi. Fərq bilirsinizmi nə qədərdir? 2200 dəfədən artıq! İmkanlar isə məhdud deyil, daha böyük uğurlara imza atmağa, digər sahələrdə irəli getməyə şanslar mövcuddur. Məsələn, 2004-cü ildə 55 min ton üzüm yığılmışdısa, keçən il bu rəqəm 167 min tona çatdı və üçqat artım əldə edildi. Şərab istehsalı 15 il ərzində 5 dəfə artıb, amma bu da son hədd deyil.

Turizm sahəsində də irəliləyişlər yeni perspektivlərə nail olmağa imkan yaradır. Keçən il turist axını əvvəlki illə müqayisədə təqribən 6 faizə yaxın artmışdı. Hesablamalara görə, əcnəbi səyyahlar ölkəmizdə 2 milyard dollara yaxın pul xərcləyiblər. Bu rəqəmləri turizmin inkişaf etdiyi ölkələrin gəlirləri ilə müqayisə etdikdə daha böyük qazanca nail olmağın yolları aydın görünür. Azərbaycanlılar dünyada digər xalqlardan seçilən fərqli üstünlüklərə malikdirlər. Əgər Neapol bulvarının seyrək yerində gəzəndə sumkandan ikiəlli yapışmalısansa, kənara addım atan kimi isə soyulmaqdan qorxmalısansa, Azərbaycanda bu təhlükələrin heç biri mövcud deyil. Ölkədə hökm sürən təhlükəsizlik, sabitlik, xalqımızın qonaqpərvərliyi əcnəbilərin diqqətini cəlb edir. Bakı dünyanın ən gözəl şəhərlərindən biri kimi yüz minlərlə əcnəbinin sevgisini qazanmışdır. Bu da onu deməyə əsas verir ki, turizm sahəsində qazandığımızdan dəfələrlə artıq valyuta əldə edə bilərik.

Dövlət başçısı qarşıya qoyulan məqsədlərin əldə olunması üçün lazım olan məbləği də açıqladı: "Bütövlükdə isə deməliyəm ki, ilkin hesablamalara görə, regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Hesablanıb ki, bunun 4,6 milyard manatı özəl sektor tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir. Ancaq əlbəttə ki, bu, ilkin rəqəmdir. Mən tam əminəm ki, bu rəqəm daha böyük olacaq. Çünki əvvəlki üç proqramın icrası bunu göstərir. Çünki üç proqramın hər biri artıqlaması ilə icra edilmişdir. Əminəm ki, dördüncü proqram da artıqlaması ilə icra ediləcək. Nəzərə almalıyıq ki, indi bizdə investisiya iqlimi daha əlverişlidir".

Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb. Bu isə o deməkdir ki, IV Dövlət Proqramının icrasına dövlət sərmayələrindən, sahibkarların yatırımlarından savayı xarici sərmayələr də cəlb ediləcək. Beləliklə, ölkə iqtisadiyyatına yatırılan vəsaitlər dövlətin rəsmi ayırmalarından xeyli artıq olacaq. Bir sözlə, bu investisiyaların hesabına Azərbaycanın bundan sonra da uğurla, inamla inkişaf etməsinə zəmin yaradılacaq.

*Bahadur İMANQULİYEV, "Azərbaycan"*

# Məqsəd əhalinin sosial rifahını daha da yaxşılaşdırmaqdır

## Dövlət başçısı sosial və iqtisadi islahatların cari ildə də davam etdiriləcəyini bildirib

Əvvəli 1-ci səh.

Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan ailələrin sosial müdafiəsi daim diqqət mərkəzindədir. Dövlət başçısının bu istiqamətdəki sonuncu təşəbbüsü də təqdirəlayiqdir. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan ailələrə dövlət qayğısının bundan sonra da davam ediləcəyini bildirərək demişdir: "Bildiyiniz kimi, keçən il prezident seçkilərindən dərhal sonra şəhid ailələrinin vərəsələrinə, - o vərəsələrə ki, o yardımı, o müavinəti almayıblar, - mənim sərəncamımla 11 min manat vəsait nəzərdə tutulur. Artıq vəsaitin verilməsi prosesi başlanmışdır. Bugünə qədər siyahıda 10 minə yaxın vərəsə var... Eyni zamanda, siyahılara baxılır, dəqiqləşdirilir və bu məsələ ilə bağlı təkliflər də irəli sürülür. Mən artıq bu barədə sözümü demişəm. Burada əlbəttə ki, sosial ədalət prinsipi əsas olmalıdır. Əminəm ki, biz bu istiqamətdə istədiyimizə nail olacağıq. Yəni, bu təşəbbüs, bu addım bir məqsədi güdürdü ki, vaxtilə bu vəsaiti almayan ailələr o vəsaiti alsınlar".

Ötən il dövlət başçısı əhalinin sosial rifahının yaxşılaşdırılması üçün bir sıra sərəncamlar imzalayıb. Ölkədə pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə imzalanan 19 fevral 2018-ci il tarixli sərəncamla orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək artırılıb.

Dövlət başçısının "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" 23 fevral 2018-ci il tarixli sərəncamı həmin ilin mart ayının 1-də qüvvəyə minib. Təkcə bu sərəncamla yaşa və əlilliyə, ailə başçısını itirməyə görə, sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqlara, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına sosial müavinətlər 10 faiz artırılıb. Bu, eləcə də müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına, əmək pensiyası almaq hüququ olmayan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə, müharibə veteranlarına və digər kateqoriyadan olan şəxslərə şamil edilib.

*Rüstəm KAMAL, "Azərbaycan"*

# Bədin xassəsi

## Xərçəng artıq ölüm deyil, vaxtında aşkarlandıqda həyat yenidən qazanılır



“Hər şey gözlənilmədən oldu. Uşağın qarnı birdən-birə şişdi. Apardım pediatra... Pediatr göndərdi, cərraha... Cərrah USM-də müayinə etdirdi, pis xəstəlikdən şübhələndi. Kompüter tomoqrafiyası oldu, diaqnoz dəqiqləşdi: Xərçəng...”

Anaya hıçqırıqlar danışmağa imkan vermir…

Söhbət xərçəng xəstəliyindən əziyyət çəkən İbrahimdən gedir. Hələ heç 5 yaşı yoxdur…

### Andım olsun...

Uşağın anası Püstəxanım Hüseynova danışır ki, xəstəliyin tibbi adı neuroblastmadır: “Araşdırmışam, bu xəstəlikdən sağalan xeyli uşaq var. Yaxşı müalicə alsa, mənim İbrahimim də qurtula bilər. Amma bunun üçün xeyli pul lazımdır. İbrahimim yaşamaq istəyir... Ölüm ondan ötrü tezdir, çox tez. Bu dəqiqə onun həyatdə qaçan-oynayan vaxtıdır, amma balam ağrıdan qollarımda qıvrılır” - deyir anası və hönkürür: “Çox çarəsizəm, onun ağrılarına dözə bilmirəm, heç cür köməyim də dəymir. Söz vermişəm İbrahimə, bu həyatda o nə qədər yaşayacaqsa, mən də o qədər yaşayacam...”

### Xərçənglə mübarizə

Hər il fevralın 4-ü Ümumdünya Xərçənglə Mübarizə Günü kimi qeyd edilir. Xərçəng hüceyrənin qarşısı alınmaz şəkildə böyüməsi ilə xarakterizə edilən xəstəliklər sinfidir. 100 müxtəlif xərçəng növü var və onların hər biri hüceyrənin növünə uyğun olaraq təsnif edilir. Zədələnmiş hüceyrələr nəzarətsiz şəkildə bölünərək tümör adlanan toxuma kütləsi, yaxud şiş əmələ gətirdikdə, xərçəng yaranır. Şişlər (tümörlər) həzm, sinir və qan dövranı sistemində inkişaf edə bilir. Onların fəaliyyətinə müdaxilə edir və bədən fəaliyyətini dəyişdirən hormonlar ifraz edir.

Bir nöqtədə dayanan və məhdud şəkildə böyüyən şişlər adətən xoşxassəli hesab edilirlər. Xərçəng hüceyrələri meydana gəldikləri şişdən ayrıldığı təqdirdə, qan və ya limfa dövranı vasitəsi ilə bədənin digər nahiyələrinə gedə bilirlər. Getdikləri nahiyələrdə şiş koloniyaları meydana gətirir və böyüməyə davam edirlər. Şiş sağlam toxumaları məhv edərək bədənin digər hissələrinə yayılıb inkişaf etdikdə, bu metastaz (şaxələnmiş) xərçəng adlanır. Bu prosesə metastaz deyilir və müalicəsi çox çətin olan kəskin vəziyyət ilə səciyyələnir.

### Dəhşətli proqnozlar

Dünya Səhiyyə Təşkilatının mütəxəssisləri 2018-ci ilin göstəricilərinə əsaslanaraq bildirir ki, hər beş kişidən və hər altı qadından biri ömürlərinin hansısa mərhələsində xərçəngə tutulurlar. Hesablamalara görə, ötən il bütün dünyada 18 milyondan artıq insana xərçəng diaqnozu qoyulub və bu xəstəlikdən ölənlərin sayı 9,6 milyona çatıb. Lakin ümidverici statistika da var: ilkin diaqnozdan sonra beş il yaşayanların sayı 43,8 milyona çatıb. Yəni, xüsusilə inkişaf etmiş ölkələrdə bu sahədə tibb irəliləməyə davam edir.

Həmçinin təşkilatın proqnozuna əsasən, 2010-2020-ci illər ərzində qeyri-infeksion xəstəliklər, o cümlədən ürək-damar xəstəlikləri və xərçəng xəstəlikləri ilə bağlı ölüm hallarının 15%-dək artması gözlənilir. Məlumata əsasən 2025-ci ilədək dünyada 20 milyon yeni xərçəng xəstəsi qeydə alınacaq. Həmin halların 80 faizi aşağı və orta gəliri olan ölkələrdə baş verəcəkdir. Avropada 2012-ci ildə 4 milyon yeni xərçəng halı qeydə alınıbsa, 2030-cu ildə bu rəqəm ildə 5 milyona çatacaq.

### Dünya bu xəstəliyin caynağında

Onkoloji xəstələrin demək olar ki, yarısı Asiya ölkələrinin payına düşür. Bu da əsasən Yer kürəsi əhalisinin 60 faizdən çoxunun dünyanın bu hissəsində yaşaması ilə əlaqədardır. Dünya əhalisinin yalnız doqquz faizindən ibarət olmasına baxmayaraq avropalılar bu göstəricinin 23,4 faizini təşkil edir.

Ən geniş yayılmış onkoloji xəstəliklərin ilk üçlüyünü ağciyər, döş və bağırsaq xərçəngləri təşkil edir. Xərçəngin bu növləri öldürücü ilk beş xəstəlik siyahısına da daxil edilib.

Onkoloji xəstələrin təxminən beşdə biri ağciyər xərçəngindən vəfat edir. İkinci yerdə düz bağırsaq, mədə və qaraciyər xərçəngi dayanır. İlk beşliyi isə süd vəzi xərçəngi tamamlayır.

Ekspertlər ağciyər xərçənginin sayının artması barəsində həyəcan təbili çalırlar. Bu sahədə ən yüksək göstərici Şimali Amerika, Avropanın şimal və qərb bölgələri - xüsusilə Danimarka və Niderland, eləcə də Çin, Avstraliya, Yeni Zelandiyada qeydə alınıb.

### Ağrılı rəqəmlər...

2017-ci ilin statistikasına əsasən Azərbaycanda 45756 xəstə bədxassəli yenitörəmə diaqnozu ilə qeydiyyatdadır. Onlardan 17149-u kişi, 28607-si qadındır.

2017-ci ildə ölkədə yenitörəmələrdən ölənlərin sayı 8665 nəfər təşkil edib ki, onlardan 4866 nəfəri kişilər, 3799 nəfəri qadınlar olub.

Qeyd edək ki, 2015-ci ildə Azərbaycanda 40 653, 2016-cı ildə isə 43 927 nəfər onkoloji xəstə qeydiyyatda olub.

2018-ci ilin qara statistikası isə hələ məlum deyil. Göründüyü kimi, rəsmi rəqəmlərə əsasən hər il Azərbaycanda xərçəng xəstələrinin sayı 2-3 min nəfər artır...

### “O, özü də bilirdi ki, bu mərəzdən yaxa qurtara bilməyəcək...”

“Eşitdiyimə inanmır, anlamsızca sözləri beynimdə təkararlayırdım. Anamda bədxassəli şiş yaranmışdı... Bu necə ola bilərdi, kiçik narahatlıqları olsa da, onda heç bir sağlıq problemi yox idi, axı...”- deyə bir neçə ay əvvəl bu xəstəlik səbəbindən anasını itirən Faiq Mirzəyev kədərini bizimlə bölüşür: “Aparılan müayinələrdən sonra məlum oldu ki, anamda süd vəzi xərçəngi var və gecikdiyi üçün çox irəliləyib. Artıq əməliyyat da etmək olmazdı. O, gündən-günə sanki əriyirdi, saçları tökülmüşdü, baxışları donmuşdu, əsəbləri tarıma çəkilmişdi.



- Azərbaycanda 2015-ci ildə 40 653, 2016-cı ildə isə 43 927, 2017-ci ildə 45756 nəfər onkoloji xəstə qeydiyyatda olub.
- Hər il Azərbaycanda xərçəng xəstələrinin sayı 2-3 min nəfər artır...
- 2017-ci ildə Azərbaycanda 1967 nəfərə süd vəzi xərçəngi diaqnozu qoyulub . 2-ci yeri ağciyər, 3-cü yeri mədə, 4-cü yeri bağırsaq xərçəngi tutur ki, bunların hər birinin sayı min nəfərdən yuxarıdır. Qadın cinsiyyət üzvlərinin xərçənginə tutulanların sayı isə 1000-ə yaxındır. Kişilərdə ən çox rast gəlinən bədxassəli şişlər ağciyər, mədə, prostat, qaraciyər, bağırsaq xərçəngidir:
- Bu xəstəlik vaxtında aşkarlansa, yerləşdiyi yerdən asılı olmayaraq 100 faiz sağala bilər. Əgər xəstə 3-cü, 4-cü mərhələdə müraciət etsə, onda onun müalicəsində müəyyən problemlər üzə çıxacaq. Əfsuslar olsun ki, xəstələrin çoxu xəstəliyin 3-4-cü mərhələsində müraciət edir. Camaatın ürəyinə qorxu salmaq lazım deyil. Hansı xəstəlik yüngüldür?

Anamın bu iztirablarını seyr etmək ürəyimizi parçalayırdı, amma çalışırdıq ki, büruzə verməyək. Daim dəstək olaq, onda sağalacağına ümid yaradaq... Amma heyhat, o, özü də bilirdi ki, bu dəhşətli mərəzdən yaxa qurtara bilməyəcək... Özünə qapanmışdı, son günlər isə ağlayaraq yalvarırdı ki, daha dözə bilmir, ona ağrılarını azacıq da olsa, sakitləşdirəcək nəsə verək...”

### “Buna böyük artım demək olmaz...”

Səhiyyə Nazirliyinin baş onkoloqu, Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimli bildirir ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da xərçəng xəstəliyində artım müşahidə olunur. Amma digər qonşu ölkələrlə müqayisə etsək, Azərbaycanda bu xəstəliyin artımında elə də ciddi nəzərəçarpacaq dəyişiklik qeyd olunmur və buna böyük artım demək olmaz: “Məsələn, 2000-ci illərin əvvəllərində ölkəmizdə əhalinin sayı 7 milyon idisə, hazırda 10 milyona yaxınlaşır. Əlbəttə, bu göstəricinin nəticəsində tək xərçəng xəstəliyi yox, digər xəstəliklərin artımı da müşahidə olunmalıdır və bu, labüddür”.

### Xərçəng sağalan xəstəlikdir, amma...



Hər beş kişidən və hər altı qadından biri ömürlərinin hansısa mərhələsində xərçəngə tutulurlar. Ötən il dünyada 18 milyondan artıq insana xərçəng diaqnozu qoyulub və bu xəstəlikdən ölənlərin sayı 9,6 milyona çatıb.

Ən geniş yayılmış onkoloji xəstəliklərin ilk üçlüyünü ağciyər, döş və bağırsaq xərçəngləri təşkil edir. Xərçəngin bu növləri öldürücü ilk beş xəstəlik siyahısına da daxil edilib.

Onkoloji xəstələrin təxminən beşdə biri ağciyər xərçəngindən vəfat edir. İkinci yerdə düz bağırsaq, sonra mədə və qaraciyər xərçəngi dayanır. İlk beşliyi isə süd vəzi xərçəngi tamamlayır.

A.Kərimli deyir ki, xərçəngə qarşı mübarizəni təkcə onkoloqlar və həkimlər yox, bütün ictimaiyyət aparmalıdır: “İlk növbədə, ekoloji natəmizliyi aradan qaldırmaq, qidalanma faktoruna diqqət etmək lazımdır. Çətinliyimiz bu sahədə maarifləndirmə işinin aparılması ilə əlaqədardır. Bu isə tək onkoloqun işi deyil. Bunun üçün müəyyən bir şərait yaradılmalıdır. Televiziya böyük təbliğat maşınıdır. Çox yaxşı olardı ki, efir vaxtı ayrılaydı, xərçəngin profilaktikası ilə bağlı vaxtaşırı məlumatlar veriləydi. Bu xəstəlik vaxtında aşkarlansa, yerləşdiyi yerdən asılı olmayaraq 100 faiz sağala bilər. Əgər xəstə 3-cü, 4-cü mərhələdə müraciət etsə, onda onun müalicəsində müəyyən problemlər üzə çıxacaq. Əfsuslar olsun ki, xəstələrin çoxu xəstəliyin 3-4-cü mərhələsində müraciət edir. Əgər insanlar həqiqətən də xərçəngin sağalan xəstəlik olduğunu anlasalar, özlərini ona kökləyib gələrlər. Camaatın ürəyinə qorxu salmaq lazım deyil. Hansı xəstəlik yüngüldür? Sadəcə, gəlib vaxtlı-vaxtında müayinə olunmaq lazımdır”.

### Bu peşə sahibləri daha çox risk altındadır

Azərbaycan Tibb Universitetinin (ATU) Onkoloji Klinikasının baş həkimi Nəsimi Qasımov məlumat verir ki, qadınlar üçün xərçəng yaradan faktorlardan biri ailədə uşağın az olması və 30 yaşdan sonra ilk hamiləliyin baş tutmasıdır: “Növbəti faktorlardan biri ultrabənövşəyi şüaların təsiri altında açıq havada uzun müddət qalmaqdır. Bu, balıqçılara, neftçilərə, kənd təsərrüfatı işçilərinə, həmçinin açıq şəraitdə işləyən başqa əməkçilərə də aiddir. Bununla yanaşı, ətraf mühitin çirklənməsi, məsələn maşın mexanizmlərindən çıxan tüstülərin tərkibində olan zərərli maddələr səbəb olur. Əhalinin sıx yaşadığı yerdə zərərli maddələr istehsal edən sənaye müəssisələrinin olması, əmək şəraiti, tutaq ki, azbest, sement, şifer zavodlarında işləmək və digər amillərin xərçəngin yayılmasında kifayət qədər rolu var”.

### Ölüm göstəricisinə görə ...

“Hazırda dünyada ildə 11 milyondan çox qadın xəstə qeydiyyata düşürsə, onun 1 milyon 600 mini qadınların süd vəzi xərçənginə görədir” - deyən onkoloq bildirir ki, bu, bədxassəli şişlər içərisində birinci yerdə durur: “İkinci yerdə duran ağciyər xərçəngidir. Bu həm kişilərdə, həm də qadınlarda müşahidə olunur. Sonrakı yeri isə mədə-bağırsaq traktının xərçəngi tutur. Son illərdə qaraciyər xərçəngi də sürətlə artmağa başlayıb. Burada əsas faktor ölüm göstəricisidir. Məsələn, dünya göstəriciləri üzrə ağciyər xərçəngindən ölüm birinci yerdədir. Baxmayaraq ki, süd vəzi xərçəngi ən çox rast gəlinəndir, ölümə görə 5-ci yerdədir. Deməli, müalicəsi və diaqnostikası kifayət qədər yaxşıdır. Ölüm göstəricisinə görə ikinci yeri qaraciyər xərçəngi tutur. Bizim ölkədə isə xərçəngin bu növü axırıncı yerlərdən birini tutur. Mədə xərçəngi üçüncü, bağırsaq xərçəngi 4-cüdür”.

### Stressdən uzaq durmaq, az yemək, fiziki aktiv olmaq...

Baş həkim deyir ki, Azərbaycanda 2017-ci ildə il ərzində xərçəng diaqnozu qoyulan xəstələrin sayı 11 mindən çox olub. Onlardan az qala 2 mini (1967 nəfəri) süd vəzi xərçəngidir. 2-ci yeri ağciyər, 3-cü yeri mədə, 4-cü yeri bağırsaq xərçəngi tutur ki, bunların hər biri min nəfərdən yuxarıdır. Qadın cinsiyyət üzvlərinin xərçənginə tutulanların sayı isə 1000-ə yaxındır. Kişilərdə ən çox rast gəlinən bəd xassəli şişlər ağciyər, mədə, prostat, qaraciyər, bağırsaq xərçəngidir: “Ölüm göstəricisinə baxanda bizimlə dünyanın arasında bir qədər fərq var. Məsələn, ağciyər xərçəngindən ölüm bizdə birinci yerdə durur. Mədə xərçəngi ikinci, süd vəzi xərçəngi üçüncü, qadın cinsiyyət üzvlərinin xərçəngi dördüncüdür. Bütün bu statistik göstəricilərə əsasən demək olur ki, ilbəil xəstələnmə artır, ölüm isə azalır. Stressdən uzaq olmaq, az yemək, fiziki aktiv olmaq, çəkini aşağı salmaq, siqaret çəkməmək lazımdır”.

### Uşaq qurbanların da sayı artır

Ən acınacaqlısı isə ölkədə xərçəngin “uşaqlaşması”dır. Başqa sözlə, bu dəhşətli xəstəlikdən ölən uşaqların sayı da çoxalır.

Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlərə əsasən 2017-ci ildə Azərbaycanda qeydiyyatda olan xərçəng xəstələrindən 483-ü uşaqdır. Həmin il yenitörəmələrdən ölən 17 yaşadək uşaqların sayı 105 nəfər təşkil edib.

Nəsimi Qasımov qeyd edib ki, uşaqlarda müşahidə edilən şişlər əsasən embrional şişlərdir: “Böyüklərdə rast gəlinən şişlər uşaqlarda yoxdur. Uşaq deyəndə biz 17 yaşadək insanları nəzərdə tuturuq. Embrional şişlərin əmələ gəlməsinin də səbəbi anaların, ataların genetik şiş daşıyıcısı olmasıdır. Dolayısı ilə demək istəyirəm ki, hər bir insanda gələcəkdə bədxassəli şiş əmələ gətirə biləcək hüceyrələrin potensial dayağı var. Biz kanserogen maddə ilə təmasda olduqda onlar fəaliyyətini aktivləşdirə bilirlər. Bu hüceyrələr genetik olaraq uşaqda rüşeymdə ola bilər ki, bunlar da bir sıra onkoloji xəstəliklərə səbəb olur. Ancaq bu rəqəm böyüklərlə müqayisədə qat-qat azdır. Həmçinin uşaqların müalicəsində böyüklərə nisbətən kifayət qədər yaxşı effekt almaq olur”.

### “Xəstəliyi uzadıb həkimə müraciət edəndə artıq gec olur...”

Nəsimi Qasımov deyir ki, ölkədə bədxassəli şişlərin müalicəsi üçün kifayət qədər geniş dərman spektri və genetik, bioloji molekulyar laboratoriyalar var: “Müalicədən sonra 20 ildən artıq yaşayan xəstələrim olub. Hazırda hesabatda qeydiyyatda olan xəstələrdən 20 mini 5 ildən çox yaşayanlardır. 65 yaşında xəstənin ömrünün üzərinə 15 il qoyuruqsa, bunun özü bir nailiyyətdir”.

Xərçəngin müalicəsində ilk iş pasientin üzərinə düşür. İnsanlar vaxtaşırı həkim müayinələrindən keçməli, bədənlərində olan dəyişikliklərə fikir verməlidirlər: “Məsələn, hər qadın öz süd vəzisini yoxlayıb ondakı dəyişikliyi görə bilər, yaxud öskürəndə bəlğəmində qan olub-olmadığına diqqət edə bilər. Gərək xəstə özünü xəstə bilmədiyi vaxtda həkimə müraciət etsin. İnsan özünü xəstə bilib həkimə müraciət etdikdə artıq çox gec olur...”

### Müalicəsi çox bahadır

O da reallıqdır ki, xərçəngin müalicəsi və təyin olunan dərmanlar olduqca bahadır ki, hər kəsin də buna maddi imkanı çatmır.

Bununla əlaqədar Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirmişdi ki, Azərbaycanda onkoloji xəstələrin müalicəsi üçün tələb edilən şiş əleyhinə dərmanların alınması ilə bağlı maliyyə vəsaitinin artırılması lazımdır. Onun sözlərinə görə, onkoloji xəstələrin müalicəsi üçün şiş əleyhinə dərmanların alınması ilə bağlı hər il vəsait ayrılır: “Lakin bu preparatların həddindən artıq baha olmasını və yeni preparatların meydana çıxmasını nəzərə alaraq, bu vəsaitin artırılmasına böyük ehtiyac var. Ayrılan vəsait kifayət etmir və xəstələr adekvat müalicə ala bilmirlər”.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsindən səhiyyə xərcləri üçün 1048,3 milyon manat ayrılmışdır ki, bu da ötən illə müqayisədə 308,9 milyon manat çoxdur. Ayrılan vəsaitin 41,1 milyon manatının xərçəng xəstəliyi ilə milli mübarizə tədbirlərinə yönəldilməsi nəzərdə tutulur.

### Xərçənglə savaşdım...

“Boğazımda bədxassəli şiş olduğunu bildikdə, dünyam qaraldı. Tezliklə öləcəyimi düşündüm, amma ailəmi, 2 kiçik övladımı gözlərimin qarşısına gətirib, yox, dedim, mən ölməyəcəm...”

Artıq 10 ildir qırtlaq xərçənginə qalib gəlmiş 46 yaşlı Zöhrab Miriyev söyləyir ki, xoşbəxtlikdən xəstəliyi birinci mərhələdə aşkarlanıb və müəyyən müalicələrdən, ən əsası da siqaret çəkməyi tərgitdikdən sonra bu dəhşətli xəstəlikdən yaxa qurtarmağı bacarıb: “Təbii ki, sağalmağımda müalicənin böyük rolu oldu, amma psixoloji baxımdan da xəstəliyi heç zaman qəbul etmədim, onunla savaşmağa başladım. Bilirdim ki, stress, həyəcan, qorxu xərçəngin artmasına birbaşa rəvac verir...”

### Profilaktika

Onu da bildirək ki, asanlıqla qarşısı alına bilən xərçənglər müəyyən davranışlarla sıx əlaqəli olanlardır. Məsələn, siqaret çəkməmək, yaxud spirtli içki içməmək əsasən ağciyər, boğaz, ağız və qaraciyər xərçəngi kimi bir sıra xərçəng növlərinin yaranma riskini azaldır. Kölgədə dayanmaqla, papaq və köynək vasitəsi ilə günəşdən qorunmaqla və günəş kremindən istifadə etməklə dəri xərçənginin qarşısı alına bilər. Həmçinin qidalanma da bu xəstəliklə əlaqəli olduğuna görə, pəhriz xərçəngdən qorunmanın əhəmiyyətli hissəsidir. Bunun üçün təzə meyvələr, tərəvəzlər və bütün dənli bitkilərlə zəngin, az yağlı pəhriz məsləhət görülür. Müəyyən peyvəndlər bəzi xərçəng növlərinin qarşısının alınmasında müsbət rol oynayır. Məsələn, uşaqlıq boynu xərçəngi ilə əlaqədar olan papilomavirus əleyhinə peyvənd vurdurulması olduqca vacibdir. Bununla yanaşı, Hepatit B peyvəndləri qaraciyər xərçənginə səbəb olan Hepatit B virusunun qarşısını alır.

Deyirlər, xərçəng təbiətin xəstəliyidir və bütün canlı orqanizmlərdə bu şişlərə rast gəlinir. Əsas səbəblərdən biri yaş faktoru olsa da, ətraf mühit, yaşam şərtləri, müəyyən vərdişlər xəstəliyin yaranmasını daha da sürətləndirir və getdikcə gənclərdə, hətta uşaqlarda ortaya çıxmasına səbəb olur, yeni növləri əmələ gəlir. Amma xəstəliklə bağlı ümidverici məqam onun zamanında aşkarlandıqda müalicəsinin mümkün olmasıdır. Buna görə də vaxtaşırı müayinə olunmaq, sağlam qidalanmaq, həyat tərzindəki pis vərdişlərdən yaxa qurtarmaq, stressdən, həyəcandan uzaq durmaq xərçəngə qalib gəlməyin və ona yaxalanmamağın ən asan yoludur.

*Yasəmən MUSAYEVA, “Azərbaycan”*

---

## Qafqaz Müsəlmanları İdarəsinin sədri Birləşmiş Ərəb Əmirliklərinə səfərə yola düşüb

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Birləşmiş Ərəb Əmirliklərinə səfərə yola düşüb.

QMİ-nin mətbuat xidmətindən AZƏRTAC xəbər verir ki, səfər BƏƏ Prezidentinin müşaviri Sultan Əl Rümeysinin rəsmi dəvətinə əsasən həyata keçirilir. QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə fevralın 2-4-də Əbu-Dabidə dünya dini liderləri, görkəmli dövlət, siyasət, elm xadimləri, nüfuzlu kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə keçiriləcək “İnsan Qardaşlığı Qlobal Forumu”nda iştirak edəcək.

Forumda Roma Papası Fransisk, Misirin Əl-Əzhər Əl-Şərif universitetinin şeyxi Əhməd Əl-Tayyib və digər dünya dini liderləri iştirak edəcəklər. Əbu-Dabi Forumunda ekstremizmə qarşı mübarizə, xalqlar və dinlər arasında dialoqun təşviqi, mənəvi dəyərlərin qorunması, münaqişələrə və müharibələrə səbəb olan dini və etnik fanatizmin qarşısının alınması və s. məsələlər müzakirə ediləcək.

Şeyxülislam Allahşükür Paşazadənin forumda çıxışı, habelə tədbir çərçivəsində bir sıra mötəbər qonaqlarla görüşləri nəzərdə tutulur.

---

# Erməni lobbisi hakimiyyətə qarşı çıxır

## Yeni iqtidarın atdığı addımlar işğalçı ölkədə etirazlara səbəb olur

Ermənistanın bir dövlət olaraq ayaq üstə qalmasında mühüm rol oynayan diaspor və lobbi qüvvələri ilə Yerevan arasında son dövrlərdə münasibətlərin əhəmiyyətli dərəcədə pisləşməsi müşahidə olunmaqdadır. Xüsusən də Ermənistanın yeni rəhbərliyi tərəfindən parlament seçkilərindən sonra Diaspor Nazirliyinin ləğv edilməsi qərarının qəbulu fonunda bu hal özünü daha qabarıq şəkildə büruzə verir. Belə ki, iqtidarın bu mövqeyi diaspor tərəfindən ciddi etirazla qarşılanır.

### Diaspor - hökumət qarşıdurması

Müxtəlif ölkələrdə yaşayan erməni diaspor nümayəndələri yeni hökumətin mövqeyinə sərt reaksiya göstərməkdə davam edirlər. Məsələn, Argentinadakı erməni diasporu yeni iqtidarı buna görə kəskin tənqid edib. Argentina erməni diasporunun narahatlığını ifadə edərək buna səssiz qalmayacağını elan edib. Argentina ilə yanaşı, Livan və ABŞ-dakı erməni diasporu təşkilatları tərəfindən təşkil olunan etiraz aksiyalarında yeni hökumətin qərarı ilə bağlı ciddi narahatlıq ifadə edilib.

Baş verənləri şərh edən “Daşnaksütyun” partiyasına yaxın olan “Aztağ” qəzetinin redaktoru, Livan erməni diasporunun rəhbəri Şahan Kandaharyan bildirib ki, belə bir qərar xarici ölkələrdə yaşayan ermənilərlə birgə keçiriləcək toplantı zamanı verilməli idi. Onun sözlərinə görə, bu mövzuda mütəxəssislərin fikirlərinə diqqət etmək vacib məsələdir.

ABŞ-dakı “Asbarez” qəzetinin redaktoru Vaçe Brudyan da hökumətin bu qərarının tələsik verildiyini bildirib. O bəyan edib ki, Diaspor Nazirliyinin yaxşı işləyib-işləmədiyi haqda müzakirələrin aparılması normal yanaşma olardı: “Bu nazirlik Ermənistanın xarici ölkələrdə yaşayan ermənilərlə bağlı bir siyasətinin olduğunun göstəricisi idi. Bu nazirliyin açılıb-bağlanılması bir şirkəti açıb-bağlamaq məsələsi deyil”.

### 700 nəfər işsiz qalıb

Diaspor Nazirliyinin əməkdaşlarının özləri də qurumun ləğv edilməsi qərarına qarşı çıxırlar. Onlar yenidən hökumət binasının qarşısına toplaşaraq müddətsiz etiraz aksiyasına başlayıblar. Diaspor Nazirliyinin əməkdaşları baş nazir Nikol Paşinyanla görüş tələb edirlər. Bildirilir ki, ötən ilin sonlarında Diaspor Nazirliyi ləğv edilərək səlahiyyətləri Xarici İşlər Nazirliyinə verilib və nəticədə 700 nəfər işsiz qalıb. Onlar diaspordan aldıqları dəstəklə hakimiyyətə təsir göstərə biləcəklərini düşünürlər.

Artıq Kilikiya katolikosu I Aram və erməni jurnalistlər bu məsələ ilə əlaqədar Paşinyana etiraz məktubu göndəriblər. Erməni mənşəli fransız tarixçisi Maksim Qauin də yeni hökumətin diasporla bağlı qərarının anlaşılmaz olduğunu bildirib. O əlavə edib ki, diaspor təmsilçiləri Ermənistan parlamentində deputat yerlərindən məhrum olublar və yaşadıqları ölkələrdə də çətin vəziyyətlə qarşılaşırlar.

Avrasiya Araşdırma Mərkəzinin analitiki Aslan Yavuz Şir iqtidar-diaspor qarşıdurmasını şərh edərkən qeyd edib ki, diaspordan indiyə qədər Ermənistanda liderləri təzyiq altında saxlamaq məqsədilə istifadə edilib. Onun fikrincə, Paşinyanın diaspora münasibətdə mövqeyi onu bir qədər fərqli lider kimi göstərir: “Ermənistanda Diaspor Nazirliyi 2008-ci ildə yaradılıb. Nazirliyin qurulması diaspordakı erməniləri daha təsirli edib. Bu nazirlik Ermənistanın daha güclü və müstəqil ölkə olmasına deyil, asılı bir dövlət olmasına çalışıb. Paşinyan xalqdan güc alaraq əvvəlki sistemdə fəal olan partiyaları oyundankənar vəziyyətə salıb və bu fakt diasporda ciddi böhran yaradıb. İndiyə qədər heç bir erməni lider diasporun gücünü kiçik sayacaq qədər gücə sahib olmayıb”.

### Separatçı rejim hakimiyyətə qarşı fəallaşıb

Bu vəziyyətdə daha bir maraqlı məqam Qarabağ separatçıları ilə bağlıdır. Belə ki, onlar da son günlərdə hakimiyyətə qarşı fəallaşıblar. Separatçıların “milli təhlükəsizlik şurası”nın katibi Vitali Balasanyan Ermənistanın eks-prezidenti Robert Koçaryana qarşı iddiaları gülünc adlandırıb. O, Ermənistanda konstitusion nizamı dəyişməyin hakimiyyətdə olmayan qüvvənin gerçəkləşdirməsinin daha real olduğunu və hakimiyyətdə olan şəxsin buna ehtiyacı olmadığını deyib. Balasanyan zamanı gələndə hazırkı hökumətin atdığı addımlara görə utanacağını vurğulayıb.

Qeyd edək ki, bu, Qarabağ separatçılarının və qondarma rejimin yeni hökumətə qarşı ilk addımı deyil. Bundan öncə separatçı rejimin bəzi nümayəndələri və hətta “parlamenti” belə Koçaryanın azad edilməsi tələbiylə çıxış ediblər.

İndi diaspor və hökumət arasında gərginləşən münasibətlər fonunda separatçıların mövcud hakimiyyətə qarşı destruktiv mövqe sərgiləməsi gözlənilir. Bu isə Ermənistanda daha gərgin vəziyyətin yaranmasına rəvac verə bilər.

*Elçin CƏFƏROV, “Azərbaycan”*

# Xalq hər kəsi yaxşı tanıyır

## Aqressiv müxalifət sabitliyi pozmaq niyyətindən əl çəkmək istəmir

Artıq neçə illərdir Azərbaycanın yüksəlişini, inkişafını və regionda söz sahibi olmasını istəməyən antiazərbaycançı dairələrin verdiyi çirkli pullarla maliyyələşən radikal müxalifətin son günlərdə mitinqlər təşkil etmək istəyi heç də təəccüblü deyil.

Görünən odur ki, dövlətimizin son illərdəki uğurlarını həzm edə bilməyən antiazərbaycançı şəbəkə rahatlığı və sabitliyi, tolerantlığı ilə seçilən Azərbaycanda yenə aranı qarışdırmağa çalışır. Ancaq bu şəbəkənin və onun ölkə daxilindəki qullarının çirkin oyunları hər zamankı kimi iflasa uğramağa məhkumdur.

Son günlərdə sosial şəbəkələrdə, internet resurslarında son mitinqi elə təqdim edirlər ki, guya bunların keçirdiyi aksiyada izdiham yaşanıb. Halbuki mitinq iştirakçılarının azlığı onlara havadarlıq edən qüvvələri heç də razı salmayıb. Məhz buna görə də onlar ağalarına növbəti mitinqdə guya daha çox adam cəlb edəcəklərinə söz verərək möhlət isdəyiblər.

Tarix unudulmur. 1990-cı illərin əvvəllərində AXC-Müsavat iqtidarının nümayəndələrinin parlamentdə çıxışlarında bir-birinə qarşı olan ittihamları, korrupsiya, rüşvətxorluq, ən əsası isə xəyanət və s. barədə açıqlamalarını hər kəs yaxşı xatırlayır. Ümumiyyətlə, cəmiyyət belə məsələləri unutmamalı, gənc nəsil tarixi geri qaytarmaq istəyənlərin keçmişi haqqında həqiqətləri bilməlidir. Çünki onlar hələ də 1990-cı illərin ab-havası ilə yaşayırlar.

İfrat radikal müxalifətin sonuncu mitinqində daha bir fakt sübutunu tapdı. Hər kəs bir daha əmin oldu ki, hazırda müxalifət postunu zəbt etmiş şəxlər hələ də dağıdıcılıq, sabitliyin pozulması yolu ilə hakimiyyəti zəbt etmək niyyətindən əl çəkməyiblər. 25 ildən çoxdur ki, dəyişməyən eyni simalar, eyni şüarlar, eyni populist və mənasız çağırışlar...

Belə uğursuz nəticələrə baxmayaraq, müxalifət yenə də mitinq keçirmək istəyir. Amma bu istək hər şeydən əvvəl, qarışıqlıq yaratmağa, sabitliyi pozmağa, xaricdəki havadarlarının vasitəsi ilə ölkəmizə qarşı əsassız ittihamlar uydurulmasına şərait yaratmağa xidmət edir. Ona görə də müxalifətin bu



cür hərəkətləri, sabitliyi pozmağa yönələn qərəzli cəhdləri yol verilməzdir və bunun qarşısı hüquqi yolla alınmalıdır.

Uzun müddət təbliğat aparıb, bütün maddi və digər güclərini səfərbər edərək meydana cəmi 3 minə yaxın adam yığa bilməyən siyasətbazların cəmiyyətə təsir gücü sıfırdan o yana keçə bilməz.

Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət, iqtisadiyyatımızın dayanıqlı olması hansısa xarici qüvvələrin ürəyincə deyil. Məhz bunun nəticəsidir ki, həmin üzdəniraq qüvvələr içimizdəki xəyanətkarları hansısa vasitələrlə şirnikləndirərək hərəkətə gətirməyə çalışırlar. Hazırda hökumət iqtisadi inkişaf yönündə sistem xarakterli islahatların miqyasını genişləndirdikcə, Azərbaycan idarəetmə fəlsəfəsini dəyişdikcə, özlərini ona opponent hesab edənlər daha da aqressivləşir. Torpaqlarımızın 20 faizini işğal edən düşmən Ermənistanla danışıqların yeni intensiv mərhələyə daxil olması ərəfəsində qarışıqlıq yaratmaq istəyən qüvvələrin məqsədi tam aydındır. Onlar xalqı çaşdırmağa çalışırlar. Xalq isə onları yaxşı tanıyır, kimin kim olduğunu çox gözəl bilir.

Prezident İlham Əliyevin son 15 ildə Azərbaycana qazandırdığı uğurlar göz önündədir. Sosialyönümlü siyasət və bu siyasətin xalq tərəfindən yüksək qiymətləndirilməsi bir daha göstərir ki, Prezident xalqını, xalq da prezidentini necə sevir. Bunun əyani sübutu kimi, Prezident İlham Əliyevin şəhid ailələri ilə son görüşünü, imzaladığı sonuncu fərman və sərəncamını göstərmək olar. Şəhid ailələrinə göstərilən diqqət xalqımız tərəfindən yüksək qiymətlədirilir. Prezidentin apardığı siyasət onu göstərir ki, bu işlərin mərkəzində Azərbaycan xalqının rifahının yüksəlməsi, onun mənafeyi dayanır.

Azərbaycanın dünya dövlətləri sırasında artan nüfuzu Prezident İlham Əliyevin müdrik siyasətinin məntiqi nəticəsidir. Ənənəvi olaraq Davosda təşkil olunan Dünya İqtisadi Forumuna dəvət olunan dövlət başçısı Azərbaycanın inkişaf modelini təqdim edir və bu, çoxlarını heyran qoyur. Prezidentin Davosda dövlət və hökumət başçıları, tanınmış beynəlxalq şirkət rəhbərləri ilə keçirdiyi görüşlər hər zaman ölkəmizə siyasi və iqtisadi uğurlar qazandırır.

Bütün bu nailiyyətlər Azərbaycanın dünya birliyindəki mövqeyini gücləndirdiyi təqdirdə, ölkəmizin inkişafını istəməyən qüvvələr və onların yerlərdəki əlaltıları daha da aqressivləşir. Səbəb isə Azərbaycana tarixinin ən qüdrətli dövrünü yaşadan İlham Əliyevə bu şərəfli vəzifəni reallaşdırmaqda mane olmaqdır. Ancaq bir şeyi unudurlar ki, xalqın öz Prezidentinə inamı və etibarı böyükdür, sarsılmazdır. Kiçik dalğalar qayadan heç nə qopara bilmədiyi kimi, stəkanda fırtına yaratmaq istəyən siyasətbazların cılız arzuları da gözlərində qalacaqdır.

*Vüsal MİRZƏYEV,*
*YAP Ağdam rayon təşkilatı Gənclər Birliyinin sədr müavini*

# Dünya olduğu kimi

## 800 il öncəki "avtomobil"





**Yunanca "Auto" və "mobilis" sözlərindən ibarət "Avtomobil" ifadəsi "özü gedən" mənasını verir. Avtomobil tək bir insan tərəfindən birdən-birə icad edilməyib. Təxminən dörd yüz il boyunca ixtiraçıların araşdırmaları nəticəsində avtomobil ideyası ortaya çıxıb.**

İlk dəfə olaraq 13-cü yüzillikdə Roger Bacon adlı bir araşdırmaçı öz-özünə gedə bilən bir maşın təsvirini yaradıb. 15-ci yüzillikdə isə Leonardo da Vinçi bu maşının eskizlərini çəkib. 16-cı yüzillikdə fransalı Verbiest Leonardonun çəkdiyi eskizlər əsasında Çin imperatoruna hədiyyə olaraq oyuncaq maşın prototipi hazırlayıb. Nəhayət, 1769-cu ildə fransız mühəndis Fardler Nicholas Joseph Cugnot özözünə hərəkət edən ilk maşını icad edir. Üç təkərli olan bu avtomobil buxar qazanından əldə edilən güclə işləyirdi.

Benzinlə işləyən motora sahib ilk avtomobil 1865-ci ildə alman mühəndis Karl Benz tərəfindən icad edilib. İlk avtomobil istehsalı isə 1908-ci ilə təsadüf edir. Bu, amerikalı Henri Forda məxsus avtomobil idi.

1892 -1893-cü illərdə amerikalı iki qardaş Frank ve Charles Duryealar benzinlə işləyən ilk amerikan avtomobili istehsal edib. O vaxt "atsız avtomobil" adlandırılan bu avtomobillər bir-birinə bənzədiyi üçün fərqlilik olsun deyə, təkərlərə zəncir də əlavə edilirdi.

Zamanla güvən, sağlamlıq, rahatlıq kimi qavrayışlar önə çıxmış və avtomobillərdən daha güvənli və daha yaxşı, qısa müddət yol getmək üçün istifadə edilməyə başlandı.

*Fərizə ƏHMƏDOVA,*
*"Azərbaycan"*

## Ağıllı pəncərələr

**Günəş şüasını istiliyə çevirərək mövcud şüşədəki E-coli bakteriyalarını öldürmək özəlliyinə malik pəncərələr yaxın gələcəkdə xəstəxanalarda, təyyarələrdə, avtobuslarda və digər yerlərdə istifadə ediləcək.**




Pəncərə bu funksiyanı icra etmək üçün şüşəsində tungsten trioksit (WO3) , metal nano zərrəciklər, mis kimi bir çox elementin antimikrob xüsusiyyətlərini birləşdirir. Xing-Hua Xiai araştırmaçılarının fikirlərinə görə, fərqli funksiyaları bu pəncərədə cəmləşdirmək bir az çətinlik yaratsa da mümkün olub.

WO3 elementi şüşədən keçən günəş işığının miqdarını tənzimləyərkən, nano zərrəciklər də öz növbəsində günəş işığını binanın içini isidəcək termal enerjiyə çevirir. Bu ağıllı pəncərələrin şəffalığı proses gedən zaman sadəcə 5 dəqiqə içində qara rəngə çevrilir. Eyni zamanda, şüşənin istiliyi o an 24 dərəcəyə kimi qalxa da bilər. Şüşənin qaralmış qismi bütün mikrobları öldürə bilir. Şəffaf qalan bölgədə isə bu təsir effekti bir qədər azdır.

## Bilirsinizmi...



- Kağız pul zənn edildiyi kimi kağızdan deyil, pambıqdan hazırlanır.
- Yarım kilo şokolad bir iti öldürə bilər. Bu, onların ürəyinə və sinir sisteminə zərərlidir.
- Bəzi əkizlər bir-birlərinin anlaya biləcəyi "cryptophasia" adlanan bir dildə danışırlar.
- Tək bir ağac ildə 26.000 km yol gedən bir maşının havaya buraxdığı karbonu yox edir.
- Şotlandiyada qapına gəlib tualetindən istifadə etmək istəyən adama icazə vermək qanunla məcburidir.
- Tanımadığınız insanları yuxunuzda görə bilməzsiz. Gördüyünüz adamlarla bir saniyəlikdə olsa, hardasa qarşılaşmısız.
- Keçəl bir insanın başına 35 dəqiqədən çox buz qoysanız, boynu iflic olar.
- Qorillalar xoşbəxt olanda gəyirirlər .
- Yataqdan yıxılaraq ölmə ehtimalı iki milyonda birdir.
- Bir futbolçu topa hər dəfə başı ilə zərbə vuranda beynində min hüceyrə ölür.
- Məşhur ərəb şairi, Qahirə universitetinin professoru Şeyx Məhəmməd Əbdül İbrahim 150 yaşında vəfat edib. 105 il subay yaşayan şair ahıl yaşında evlənib və 5 uşağı olub.
- "Jeep" sözü General Purpose ( ümumi məqsəd) sözünün qısaldılması olan G.P hərflərindən götürülüb.



## Bu dünya Sultan Süleymana da qalmadı

Bir vaxtlar dünyaya hökmranlıq edən Sultan Süleyman vəsiyyətində tək əlinin tabutdan bayırda saxlanılmasını istəmişdi. Bununla, o bu dünyadan əliboş getdiyini göstərmək istəmişdi.

## Dişləri buynuz kimi çıxan heyvan



Dünyanın ən qəribə heyvanlarından sayılan dəniz kərgədanında buynuz kimi görünən, əslində, dişləridir. Və bu cür dişlər ancaq erkək növlərində olur. 3 metrə qədər uzunluğu olan bu dişlərdə 10 milyondan çox sinir ucu var. Bu qəribə heyvanlar həm də suyun ən dərin qatlarına dala bilən məməlilər sayılır.

## 1300 il əvvələ səyahət imkanı



**Yenidən kəşf edilən "Shi Cheng" şəhərinin təxminən 1300 il əvvəl əsası qoyulub. Bu şəhər 55 ildir ki suyun altında qalıb.**

Çindəki Beş Aslan dağının arxasında yerləşən antik şəhər Lion City ( Aslan şəhəri) hər kəsin xüsusi diqqətini çəkir. Həm də "Shi Cheng" olaraq tanınan bu şəhər 55 il suyun altında qalıb. Yenidən kəşf edilən "Shi Cheng" şəhərinin təxminən 1300 il əvvəl əsası qoyulub.

Vaxtilə şəhərin ətrafında gölə ehtiyac olduğundan bir su anbarı inşa edilib. Amma suyun səviyyəsi yüksəldiyi üçün 1959-cu ildə şəhər suda "boğulub".

Qiandao adlanan gölün altında 26-40 metr dərinlikdə tapılan şəhərdə təxminən 85 tarixi abidə var. Şəhər 62 futbol sahəsi böyüklüyündədir, əsrlərdir günəşdən, eroziyadan, bütün ekzogen proseslərdən suyun altında olması sayəsində qorunub. Şəhərdə 5 giriş, 5 qala, 6 əsas küçə və bir çox şir fiquru olduğu deyilir.

Deyilənə görə, evlərin nərdivanları və bütün detalları tamamilə sağlam şəkildə qaldığından şəhəri görən hər kəs özünü keçmişə səyahət etmiş kimi hiss edir. Hazırda Çinə səfərə gedən hər kəs ora təşkil edilən ziyarətçi turlarına qoşula bilər.

# Beynəlxalq aləm

## ABŞ OYRM-dən çıxdı

ABŞ-ın dövlət katibi Mayk Pompeo ölkəsinin ortamənzilli və yaxınmənzilli raketlər haqqında müqavilədən (OYRM) çıxdığını elan etmişdir. Bu barədə o, jurnalistlər üçün keçirdiyi brifinqdə məlumat vermişdir. Dekabrın əvvəllərində Pompeo vəd etmişdi ki, Rusiya OYRM-in şərtlərini pozmağı dayandırmasa, ABŞ 60 gün ərzində müqavilədən çıxacaq.

Ağ evin bəyanatında deyilir ki, ABŞ 30 ildən çoxdur müqaviləyə sadiq qalmışdır. Lakin Rusiya bilərəkdən öz hərəkətlərini təhrif etdiyi vaxt Vaşinqton sənədin şərtlərinə bağlı qalmaq niyyətində deyil. NATO üzrə müttəfiqlər müqavilənin pozulmasına məhəl qoyulmamasının silahlara nəzarət üçün yaradacaq riskləri anlayaraq ABŞ-ın mövqeyini tamamilə dəstəkləyir. Sənəddə qeyd olunur ki, silahlara nəzarət yoxlanıla bilməli və həyata keçirilməlidir.

Öz növbəsində, ABŞ lideri Donald Tramp silahlara nəzarət haqqında yeni sazişin imzalanmasının mümkünlüyü barədə danışmışdır. Prezident razılaşmalar formatının genişləndirilə biləcəyini istisna etməmişdir. O ümidvar olduğunu bildirmişdir ki, biz hamını böyük gözəl bir otağa yığıb əvvəlkindən də yaxşı yeni saziş imzalayacağıq.

## Buenos-Ayres hotelində dəhşətli yanğın



Argentinanın paytaxtı Buenos-Ayresin mərkəzində yerləşən mehmanxanada yanğın baş vermişdir. Fəlakət zamanı 112 nəfər xəsarət almışdır. Bu barədə TN telekanalı xəbər verir.

Təcili tibbi yardım stansiyasının direktoru Oskar Balkarsenin dediyinə görə, 112 nəfərə yardım göstərilmişdir. Onlardan 52-si xəstəxanalara göndərilmişdir. Son məlumata görə, yanğın zamanı iki nəfər vəfat etmişdir.

30 mərtəbəli hotelin 5-ci mərtəbəsində baş vermiş yanğının səbəbləri hələ ki məlum deyil.

## Türkiyədə İŞİD-in dörd terrorçusu saxlandı



Türkiyə Silahlı Qüvvələri İŞİD-in dörd terrorçusunu xaricə qaçmağa çalışarkən saxlamışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, dörd terrorçu Türkiyənin sərhədyanı Şanlıurfa vilayətinin Akçakala rayonunda sərhədi qanunsuz olaraq keçməyə cəhd edərkən tutulmuşdur.

Dindirilmə zamanı məlum olmuşdur ki, saxlanılanlardan biri İnterpolun "qırmızı bülleteni" ilə axtarışda olan Fəridə Samurdur. Digər saxlanılanlar da terrorçuluq fəaliyyətində şübhəli bilinirlər.

## İran yeni qanadlı raket nümayiş etdirdi



Dünən İran Silahlı Qüvvələri yeni uzaqmənzilli "Hoveyze" qanadlı raketini nümayiş etdirmişdir. Bu barədə "Press TV" telekanalı xəbər verir.

Raket ölkədə islam inqilabının 40-cı ildönümünə həsr edilmiş bayram tədbirləri fonunda Tehrandakı İran hərbi nailiyyətlər sərgisində nümayiş etdirilmişdir. Mərasimdə İranın müdafiə naziri Əmir Xatəmi də iştirak etmişdir. Nazirin dediyinə görə, "bu raket "Sumar" ailəsinə aiddir. O, qısa müddətdə hazırlanmış və yüksək səmərəliliyə malikdir. "Aerospace İndustries Orqanization" şirkətinin ekspertləri tərəfindən hazırlanmış raket 1350 kilometrdən çox məsafə qət edə bilir. Yüksək dəqiqliyə malik "Hoveyze" aşağı hündürlükdə də uçmağa qadirdir".

## Kabo-Verdedə 11 rusiyalı dənizçi həbs olundu

Kabo-Verdedə "Eser" yük gəmisinin heyət üzvləri olan 11 rusiyalı həbs edilmişdir. Onlar narkotik maddələr qaçaqmalçılığında şübhəli bilinirlər. Bu barədə "Maritime Bulletin" qəzeti xəbər verir.

Məlumata görə, polis gəminin göyərtəsində 9,5 ton kokain aşkar etmişdir.

Hüquq-mühafizə orqanları bildirir ki, bu, ada dövlətinin tarixində birdəfəyə müsadirə edilmiş ən iri narkotik maddələr partiyasıdır. Polisi cinayət barədə Avropa İttifaqının yeddi ölkəsinin narkotik maddələrin qaçaqmalçılığına qarşı mübarizə üzrə fəaliyyətini əlaqələndirən "Maritime Analysis and Operation Center" şirkəti xəbərdar etmişdir.

Gəmi Cənubi Amerikadan Mərakeşə gedirmiş. Lakin heyət üzvlərindən birinin naməlum səbəblərdən vəfat etməsindən sonra "Eser" Kabo-Verdenin paytaxtı Praye limanına yan almışdır.

2011-ci ildə Kabo-Verde hökuməti Avropa bazarı üçün nəzərdə tutulan 1,5 ton kokain müsadirə etmişdir. 2016-cı ildə ABŞ bayrağı altında üzən, Braziliyada qeydə alınmış balıqçılıq gəmisində 280 kiloqramlıq narkotik maddələr partiyası ələ keçmişdir.

## Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Kəmərli, Quşçu Ayrım, Qızılhacılı, Tovuz rayonunun Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Famil Sabitova qardaşı

**FAZİL SABİTOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8353
Sifariş 318
Qiyməti 40 qəpik